QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 115 (6315) 2 iyul 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: "Bizim sözümüzlə əməlimiz heç vaxt fərqlənmir, nəyi deyiriksə, onu da edirik"

*Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlini qoyub, Azərbaycan Televiziyasına müsahibə verib*



Bax 2

## Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının X hesabat konfransı keçirilib

Bax 5



İyulun 1-də Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib...

## İki qardaş dövlətin "göz dağı" əməliyyatı



Bu, tarixən belə olub və bu gün də belədir. Ən çətin anların sınağından çıxan, dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümü olan bu birlik, qardaşlıq işğalçı Ermənistanı...

Bax 8

## Bəhruz Quliyev: "MEDİA-nın bu addımı yalnız təqdir olunmalıdır"

Bax 5



"Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən onlayn informasiya subyektləri arasında keçirilən müsabiqənin qaliblərinin müəyyən edilməsindən sonra ilk növbədə həmin veb-saytların, elektron informasiya resurslarının həm iqtisadi...



Bax 8

## MEDİA Agentliyinin onlayn media üçün təşkil etdiyi müsabiqənin nəticələri bəlli oldu

## Azərbaycan-Ermənistan: sülh prosesi necə gedir?



Bax 15

Son günlərdə Azərbaycan-Ermənistan arasındakı məsələlərlə bağlı vəziyyət dünya mediasının diqqət mərkəzindədir. "Moskva-Baku" portalında yayımlanan verilişdə qeyd olunan məqamları oxucularımızın diqqətinə çatdırırıq.

## Toylarda sıxlığa necə nəzarət olunacaq?



Artıq ölkə ərazisində toy, nişan, ad günlərinin keçirilməsinə icazə verilib. Mərasimlərdə pandemiya qaydalarına əməl olunmasına nəzarət məqsədilə ictimai iaşə obyektlərində monitorinqlərə başlanılıb. Bu barədə AQTA-nın şöbə müdiri Mansur Piriyev məlumat verib.

Bax 10

### Tovuzda gizli qəbirlər aşkarlandı video




Bax 9

### "Erməni təbliğat maşını adekvat qarşılanmır"



Bax 3

### Messi artıq "Barselona"nın futbolçusu deyil!



Bax 16

# İlham Əliyev: “Bizim sözümüzlə əməlimiz heç vaxt fərqlənmir, nəyi deyiriksə, onu da edirik”

*Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlini qoyub, Azərbaycan Televiziyasına müsahibə verib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.***

Bildirilib ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektar olacaq. İqtisadi zonanın ümumi sahəsinin 60 hektarında layihələndirilmə artıq başa çatıb və inşaat işləri başlayıb, bütün infrastrukturun yaradılması üçün zəruri addımlar atılıb.

Diqqətə çatdırılıb ki, zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox vacib layihələr icra olunub. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda bu proseslər uğurla davam edir. Ələt Azad İqtisadi Zonasının yaradılması bunun bariz nümunəsidir. Bu layihənin icrası Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq.









Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasının təməlini qoydu.

X X X

Sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi.

**Müxbir: Salam cənab Prezident, xoş gördük Sizi. Cənab Prezident, bu gün təməli qoyulan Ələt Azad İqtisadi Zonasının yaradılması ideyası necə yaranıb?**

Prezident İlham Əliyev: Bu zonanın yaradılması ideyasının təməlində bizim siyasətimiz dayanır. Xüsusilə son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar görülən işlər bu zonanın yaradılmasına təkan vermişdir. Biz gördük ki, qeyri-neft sektoruna qoyulan sərmayə daha çox dövlət sərmayəsidir, yaxud da ki, yerli şirkətlərin sərmayəsidir. Xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər. Ona görə, bu zonanın yaradılması, əminəm ki, Azərbaycanın qeyri-neft sektorunun, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir. Eyni zamanda, burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və bizim qeyri-neft sektorumuzun ixrac imkanları genişlənəcək. Çünki bizim ümumi daxili məhsulumuzun strukturuna baxsaq görərik ki, neft sektoru artıq üstünlük təşkil etmir. Ancaq ixraca baxdıqda görərik ki, ixracımızın mütləq əksəriyyəti neft-qaz məhsulları ilə təmin edilir. Ona görə bax, burada da islahatların aparılması və xarici investorların xüsusilə sənaye sahəsinə cəlb edilməsi əsas amillərdən biri idi. Əlbəttə ki, bu ideya çoxdan müzakirə olunurdu. Ancaq bu layihənin reallaşdırılması üçün vaxt düzgün seçilməli idi, biz buna hazır olmalı idik və hesab edirəm ki, bu gün biz buna hazırıq.

**-Cənab Prezident, Ələt Azad İqtisadi Zonasının yaradılması ilə bağlı hansı addımlar atılıb?**

-İlk növbədə, biz təşkilati işləri görməli və elə bir şərait yaratmalı idik ki, investorları cəlb edə bilək. Aydın məsələdir ki, Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkələrdəndir və belə ölkələrdə azad iqtisadi zonaları yaratmaq daha çətindir. Çünki əlverişli coğrafi vəziyyəti olan ölkələrdə bu zonalar çox böyük uğur qazanıb və ilk növbədə, coğrafi yerləşməyə görə. Ona görə bizə gəldikdə, bu coğrafi vəziyyəti nəzərə alaraq daha da səmərəli işləməli idik və investorlar üçün daha da cəlbedici şərtlər təqdim etməli idik. İlk növbədə, qanunvericilik sahəsində işlər görülməli idi və mən 2017-ci ildə Ələt Azad İqtisadi Zonasının yaradılmasının sürətləndirilməsinə dair müvafiq Sərəncam imzaladım, 2018-ci ildə qanun qəbul edildi. Bu, həm dövlət maraqlarımızı, həm investorların maraqlarını tam təmin edən çox mütərəqqi qanundur. Bu, çox önəmlidir. Çünki əgər qanunvericilikdə investorlar üçün hansısa qeyri-müəyyən məqamlar olsaydı, əlbəttə ki, onları buraya cəlb etmək mümkün olmazdı. Xüsusilə nəzərə alsaq ki, son illərdə dünyada cərəyan edən iqtisadi və maliyyə böhranı investisiyaların həcmini də azaldıb. Əlbəttə ki, pandemiya da dünya iqtisadiyyatına mənfi təsir göstərib. Belə bir tarixi məqamda bu addımı atmaq, əlbəttə ki, həm böyük cəsarət tələb edir, həm də bizim inamımıza əsaslanır. Ona görə hesab edirəm ki, qanunvericilik sahəsində görülən işlər həm investorların, həm də Azərbaycan dövlətinin maraqlarını tam təmin edir.

Ardı Səh. 3

# İlham Əliyev: “Bizim sözümüzlə əməlimiz heç vaxt fərqlənmir, nəyi deyiriksə, onu da edirik”

*Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlini qoyub, Azərbaycan Televiziyasına müsahibə verib*










**Əvvəli-Səh-2**

Ondan sonra 2018-ci ildə artıq praktiki işlərə başlanılmışdır. Bu 850 hektarlıq ərazi ayrılmış, Ələt Azad İqtisadi Zonasının konsepsiyasının işlənməsinə start verilmiş, işçi qrup yaradılmış və artıq işlər praktik müstəviyə keçmişdir.

Təbii ki, pandemiya işimizə müdaxilə etdi və bizim planlarımızı bir qədər təxirə saldı. Ancaq indi pandemiya həm ölkəmizdə, həm də bir çox ölkələrdə səngiyir. Hesab edirəm, bu gün bu təməlqoyma mərasiminin keçirilməsi artıq onu göstərir ki, biz buna tam hazırıq. Bundan sonra isə artıq praktiki işlərin başlanmasına start verilir və əminəm ki, bu işlər də vaxtında başa çatacaq.

**-Cənab Prezident, Azad İqtisadi Zona niyə məhz Ələtdə yaradılır?**

-İlk növbədə, Ələt qəsəbəsinin ərazisində böyük boş torpaq sahələri var və bu torpaq sahələrinin mütləq əksəriyyəti kənd təsərrüfatı üçün yararsız torpaqlardır. Digər tərəfdən, Ələt qəsəbəsi Bakı şəhərinə yaxındır. Bu da vacib şərtlərdən biridir. İnfrastruktur layihələrinin icrası üçün artıq bütün ilkin şərtlər vardır. Səngəçalda 300 meqavat gücündə elektrik stansiyası mövcuddur və infrastruktur layihələrinə qoyulan xərclər də nisbətən az olacaq. Burada Beynəlxalq Dəniz Limanı yerləşir. Bu da iqtisadi zonanın fəaliyyəti üçün önəmli amillərdən biridir. Hesab edirəm ki, Ələtin inkişaf perspektivi də çox uğurlu ola bilər. Əgər bu zona istədiyimiz kimi formalaşsa, - mən buna əminəm, - bu bölgənin inkişaf dinamikası ümumi inkişafımıza da böyük müsbət təsir göstərəcək. Bax, bu amillər bu yerin seçilməsində əsas rol oynamışdır. Eyni zamanda, buradan bizim beynəlxalq dəhlizlərimiz də keçir. Şərq-Qərb dəhlizi, Şimal-Cənub dəhlizi Ələtin ərazisindən keçir. Ona görə logistika, nəqliyyat baxımından bu yer çox əlverişlidir. Məhz buna görə Ələt bu məqsədlər üçün seçilmişdir.

**-Cənab Prezident, fikrinizcə, investorları bu Azad İqtisadi Zonaya nə cəlb edəcək və onlar nəyə görə məhz buraya sərmayə qoyacaqlar?**

-Biz də bu sualı özümüzə verirdik və ona görə bu zonanın yaradılması ilə bağlı görülən işlər məhz bu suala cavab verməli idi. Çünki bu gün dünyanın müxtəlif ölkələrində azad iqtisadi zonalar var. Qeyd etdiyim kimi, bəzi ölkələrdə bunu təbii şərait, coğrafi yerləşmə şərtləndirir. Açıq dənizlərə çıxışı olmayan ölkələrdə azad iqtisadi zonaların yaradılması təcrübəsi o qədər də uğurlu deyil. Biz uğurlu və uğursuz təcrübəni öyrənmişik, təhlil aparmışıq. Hesab edirik bu gün Azərbaycanda bütün ilkin şərtlər var ki, investorları məhz bu zonaya cəlb edək. Hesab edirəm ki, ilk növbədə, bu yerin coğrafi vəziyyəti əlverişlidir- dənizin kənarında, dəniz limanının böyründə yerləşir, kifayət qədər böyük ərazidir. İlkin mərhələdə artıq 60 hektarlıq yer inkişaf üçün hazırdır. Amma, ümumiyyətlə, 850 hektar torpaq sahəsi ayrılıb. Bu torpaq sahəsinə bitişik olan torpaq sahələri də artıq müəyyən edilib ki, orada hər hansı bir tikinti aparılmasın, bu, gələcək inkişaf üçün lazımdır.

Azərbaycanda çox gözəl sərmayə iqlimi vardır. Biz bunu həm neft-qaz layihələrinin icrası zamanı nümayiş etdirmişik, həm də digər sahələrdə aparılan islahatlar nəticəsində çox gözəl investisiya iqlimi yaradılmışdır. Təsadüfi deyil ki, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerə layiq görülüb. Bu, dünya miqyasında çox böyük nailiyyətdir. Biz bir çox inkişaf etmiş ölkələri bu parametrlər üzrə qabaqlamışıq. Yəni, gözəl investisiya iqlimi investorları cəlb etmək üçün əlbəttə ki, əsas şərtlərdən biridir.

Digər vacib məsələ, - nə üçün biz hesab edirik ki, investorlar gələcək, - müasir infrastrukturun mövcudluğudur. Biz bu infrastrukturu son illər ərzində ardıcıl şəkildə yaratmışıq. Bu gün yenə də beynəlxalq mötəbər qurumlara istinadla deyə bilərik ki, bu sahədə də böyük uğurlar əldə etdik. Bilirik ki, potensial investorlar, ilk növbədə, Dünya Bankının “Doing Business” hesabatına baxırlar, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun reytinq cədvəlinə baxırlar. Hər iki yerdə bizim üstünlüyümüz göz qabağındadır. İnfrastruktur layihələrinin səviyyəsinə görə, baxın, Azərbaycan hansı yerlərə layiq görülüb. Elektrik təchizatı sahəsində Azərbaycan Davos Forumunun hesabatında dünya miqyasında ikinci yerdədir. Təsəvvür edin, dünya miqyasında ikinci yerdə. Dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci yerdə. Hava nəqliyyatının səmərəliliyinə görə 12-ci yerdə. Avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşür. Xəzər gəmiçiliyi gəmiçilik xidmətlərinə görə 25-ci yerdədir. Bütün bunlar bizim əldə etdiyimiz böyük uğurlardır. Bu uğurlar bu gün ölkəmizin dinamik inkişafını təmin edir. Çünki əsas infrastruktur layihələri artıq ya başa çatıb, ya da başa çatmaq üzrədir. İnvestorlar üçün bunlar çox önəmli şərtlərdir - investisiya iqlimi, infrastruktur layihələri.

Həmçinin son illər ərzində Azərbaycanda çox güclü kadr potensialı yaradılıb. Bu sahəyə xüsusi diqqət göstərilir. Biz dövlət xətti ilə minlərlə gənci dünyanın aparıcı ali məktəblərində oxutmuşuq. Onların böyük hissəsi Azərbaycana qayıdıb və müxtəlif yerlərdə çalışır. Neft konsorsiumlarında çalışan azərbaycanlılar artıq bizim intellektual potensialımızın inkişafına xidmət göstərirlər. Kadr potensialı var, bu da investorları cəlb edəcək.

Azərbaycanda təhlükəsizlik təmin edilir. Azərbaycan dünyanın bəlkə də ən təhlükəsiz ölkələrindən biridir. İnvestorlar üçün bu amil də çox önəmlidir.

Azərbaycanda mədəniyyətlərarası dialoq, dini tolerantlıq məsələləri dünya miqyasında artıq nümunə kimi göstərilir. Biz istəyirik ki, bütün dünya ölkələri buraya gəlsinlər və investisiya qoysunlar. Bu amil də çox önəmlidir.

Digər tərəfdən, ölkəmizdə mövcud olan sabitlik hər bir investor üçün əsas şərtlərdən biridir. Sabitlik olmayan ölkələrə heç kim sərmayə qoymur. Bu, aksiomdur. Sərmayə qoyuluşu baxımından cəlbedici ölkələrin təcrübəsinə baxsanız, bunu görərsiniz. Bu gün Azərbaycana qoyulan və qoyulacaq sərmayələrin əsas şərtlərindən biri, bəlkə də birincisi ictimai-siyasi sabitlikdir, xalq-iqtidar arasındakı birlikdir.

Digər vacib amil ondan ibarətdir ki, bizim sözümüzlə əməlimiz heç vaxt fərqlənmir. Yəni, nəyi deyiriksə, onu da edirik. Sözümüzü tutan insanlarıq və həyat bunu dəfələrlə göstərib. İnvestorlar üçün çox cəlbedici şərait yaradılıb. Təkcə neft-qaz layihələrinə baxmaq kifayətdir görək ki, 1994-cü ildən bu günə qədər imzalanmış kontraktlarda bir vergül belə dəyişdirilməyib. Ancaq bir çox yerlərdə müəyyən mərhələ keçəndən sonra ölkələr şərtləri özlərinə daha uyğun tərzdə dəyişdirməyə cəhd göstərirlər. Biz bunu etməmişik. Çünki bunu etsək, investorları qaçırdacağıq. Yəni, bütün bu amillər və əlbəttə ki, İkinci Qarabağ müharibəsində qazandığımız Qələbə və Dağlıq Qarabağ münaqişəsinin həlli artıq yeni bir vəziyyət yaradıb. Hesab edirəm ki, uzunmüddətli sabitlik, sülh artıq investorlar üçün də gün kimi aydın məsələdir. Bütün bu amillərin mövcudluğu və bizim gələcəyimizə olan inam, əminəm ki, xarici sərmayədarları bu zonaya cəlb edəcək.

*Ardı Səh. 4*

# İlham Əliyev: “Bizim sözümüzlə əməlimiz heç vaxt fərqlənmir, nəyi deyiriksə, onu da edirik”

*Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlini qoyub, Azərbaycan Televiziyasına müsahibə verib*

Əvvəli-Səh-3

**- Cənab Prezident, sonuncu sualım, Ələt Azad İqtisadi Zonası investorları qəbul etməyə nə vaxt hazır olacaq?**

- Bu gün qoyulan təməl artıq işlərin başlanmasına təkan verir. Artıq birinci görüləcək işlər planlaşdırıldı, 850 hektarın 60 hektarı artıq layihələndirildi, detallı, müfəssəl layihələndirmə işləri aparılmışdır. Bu gündən etibarən tikinti işləri başlanacaq, infrastruktur layihələri, biznes mərkəzi, gömrük-keçid məntəqəsi və lazım olan digər sahələrdə işlər görüləcək. Hesab edirəm ki, bir ildən sonra - gələn ilin iyul ayından başlayaraq, biz investorları qəbul etməyə hazır olacağıq.

O vaxta qədər Azad İqtisadi Zonanın rəhbərliyi həm ölkə daxilində, həm də xaricdə müxtəlif tədbirlər keçirəcək. Təqdimatlar keçirilməlidir, potensial investorlarla birbaşa təmaslar qurulmalıdır. Eyni zamanda, Azad İqtisadi Zonanın nümayəndələri müxtəlif ölkələrə ezam olunacaq, həmçinin xaricdən potensial investorlar dəvət ediləcək. Bununla bərabər, mən indi bizim bütün xarici ölkələrdəki səfirliklərə göstəriş verirəm ki, öz təmasları əsnasında bu zonanın yaradılması ilə bağlı potensial investorlara məlumat versinlər. Bizim bir çox ölkələrlə hökumətlərarası komissiyalarımız var. Bu komissiyaların rəhbərlərinə də tapşırıram ki, komissiyaların iclaslarının keçirilməsi zamanı Azad İqtisadi Zonanın nümayəndələri mütləq təmsil olunsunlar və bu mövzu mütləq gündəliyə salınsın. Bir daha demək istəyirəm, çünki bizim bir çox ölkələrlə belə komissiyalarımız var. Amma bu komissiyaların işini təhlil edərkən görürəm ki, xarici şirkətlər Azərbaycanda daha çox podratçı kimi fəaliyyətə cəhd göstərirlər. Yəni, Azərbaycanda daha çox pul qazanmaq istəyirlər, bunun mənası budur. Biz etiraz etmirik. Çünki indi biz hətta azad edilmiş torpaqlara xarici podratçıları, kontraktorları cəlb edirik. Ancaq biz istəyirik ki, xarici investorlar Azərbaycana sərmayə qoysunlar. Çünki dövlət sərmayəsi artıq öz rolunu oynayıb. Biz bütün əsas infrastruktur layihələrini icra etmişik. Təbii ki, azad edilmiş torpaqlarda indi böyük tikinti-quruculuq işlərinə start verilir. Bu da böyük iqtisadi canlanmaya gətirib çıxaracaq. Ancaq biz başa düşməliyik ki, birbaşa xarici investisiyalar olmadan ölkəmiz istədiyimiz qədər inkişaf edə bilməz. Ona görə, başqa ölkələrlə hökumətlərarası komissiyaların işi də, ilk növbədə, xaricdən vəsaiti Azərbaycana gətirməkdir. Hesab edirəm ki, məhz bu zona potensial investorlar üçün cəlbedici ola bilər.

Beləliklə, bir ildən sonra - gələn ilin iyul ayında zona investorları qəbul etməyə hazır olacaq. Əminəm, biz görəcəyik ki, bax, burada göstərilən mənzərə həyatda öz əksini tapacaq. Çünki bu günə qədər bütün təşəbbüslərimiz, bütün planlarımız həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb. Bunları sadalamağa ehtiyac yoxdur, hər kəs bilir söhbət nədən gedir. Ona görə, bu zonanın yaradılması, əminəm ki, uğurumuzun növbəti addımı olacaqdır.

**- Cənab Prezident, suallarımızı ətraflı cavablandırdığınız üçün çox sağ olun. Minnətdarıq Sizə.**

- Sağ olun.



# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 109-cu kitabı çapdan çıxıb

***Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah onların yaxınlarına səbir versin! Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir. Artıq bu ildən başlayaraq göstəriş verildi. Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və daim o ailələr diqqət mərkəzində olacaqdır. Birinci Qarabağ müharibəsində həlak olmuş 9 min şəhidin ailəsinə dövlət tərəfindən artıq mənzillər, evlər verilib.***




Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq. Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi mənim tərəfimdən yüksək orden və medallarla təltif edilib.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 109-cu kitabında yer alan bu fikirləri Azərbaycan Prezidenti yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı söyləyib.

Çoxcildliyin yeni kitabındakı materiallar 2020-ci ilin dekabrından 2021-ci ilin fevralınadək olan dövrü əhatə edir.

Bu cilddə Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri, Füzuli-Şuşa avtomobil yolunun və Füzuli rayonunda hava limanının təməlqoyma mərasimində iştirakı barədə materiallar, Şuşada, Cıdır düzündə çıxışının mətni daxil edilib. Dövlətimizin başçısının Füzuli rayonunda hava limanının təməlqoyma mərasimində söylədiyi “Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik” sözləri xalqımızın tarixi günlər yaşadığını bir daha təsdiqləyir.

Oxucular yeni nəşrdə Prezident İlham Əliyevin Moskvaya işgüzar səfəri çərçivəsində Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin üçtərəfli görüşü haqqında informasiya, 2021-ci il 11 yanvar tarixli birgə Bəyanatın, mətbuata bəyanatlarla çıxışların mətnləri, Rusiya Prezidenti ilə görüşünə dair materiallarla tanış ola bilərlər.

Kitaba Azərbaycan Prezidentinin Türkiyənin milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyəti, Rusiya Federasiyası Hökumətinin sədr müavini, Rusiya-Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyasının həmsədri Aleksey Overçuk, ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti, İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif, Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Dövlət katibi Jan Batist Lömuan ilə görüşlərinə dair informasiyalar daxil edilib.

Çoxcildliyin 109-cu kitabında Azərbaycan Prezidentinin 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə söylədiyi nitqlərin mətnləri, Sabunçu rayonunda yenidən inşa edilmiş 90 saylı və Suraxanı rayonunda 97 saylı tam orta məktəblərdə, Xırdalan şəhərində 3 saylı Texniki-təbiət fənləri təmayüllü məktəb-liseydə yaradılmış şəraitlə tanışlığına, Yasamal rayonunda yeni salınmış meşə tipli parkın, Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilmiş binasının açılış mərasimlərində və digər tədbirlərdə iştirakına dair materiallar yer alıb.

Yeni nəşrdə Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına, Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına müraciətinin mətnləri də verilib. “Azərnəşr” tərəfindən buraxılan 109-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının X hesabat konfransı keçirilib








***İyulun 1-də Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva hesabat məruzəsi ilə çıxış edib. S.Vəliyeva bildirib ki, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı 1993-cü il 11 sentyabr tarixində Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun akt zalında 76 nəfərin iştirakı ilə yaranıb. Bu gün isə rayon təşkilatının sıraları kəmiyyət və keyfiyyət baxımından genişlənir: "Belə ki, hazırda 143 ərazi ilk partiya təşkilatında 14 minə qədər üzv birləşib. Üzvlərin sayı IX konfransda 13078 nəfər idisə, bu rəqəm bu gün 13993-dir. Bu müddət ərzində partiya üzvlərinin sayında 915 nəfər artım olub. Üzvlərin 50 faizindən çoxunu gənclər təşkil edir. 2017-ci ildə 6097 gənc partiya sıralarında birləşmişdisə, bu gün onların sayı 6766 nəfərdir. Cəmiyyətdə aktivliyi ilə seçilən qadınlarımızın da sayında artım olub. 2017-ci ildə onların sayı 5811 nəfər, bu gün bu rəqəm 6235-dir".





S.Vəliyeva onu da qeyd edib ki, YAP Nizami rayon təşkilatı IX konfransdan ötən müddət ərzində YAP Mərkəzi Aparatının tapşırıq və tövsiyələrinə uyğun olaraq cəmiyyətimizin bütün sosial təbəqələrini əhatə edən əhəmiyyətli tədbirlər keçirib, layihələr reallaşdırıb. Xalqımız üçün xüsusi əhəmiyyət kəsb edən bütün təqvim günlərində aktual mövzuları əhatə edən tədbirlər, konfranslar, dəyirmi masalar və sair təşkil edilib, partiya fəalları mükafatlandırılıb.

Sonra YAP Nizami rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədr müavini Aygün Nəsirovanın hesabatı dinlənilib.





Müzakirələr zamanı YAP Nizami rayon təşkilatı İdarə Heyətinin üzvləri Dünyamalı Pənahov və Ələmdar Bafadarov, YAP Nizami rayon təşkilatı Şurasının üzvləri Almaz Əsgərova, Heydər Rəhimov və Samir Əhmədov, YAP Nizami rayon təşkilatının yaradıcılarından olan Leyla Seyidbəyova, YAP Nizami rayon təşkilatı Qadınlar Şurasının sədri Sevda Abdullayeva çıxış edərək rayon təşkilatının hesabat dövrü ərzindəki gördüyü işlərdən bəhs ediblər.



Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev Yeni Azərbaycan Partiyasının cəmiyyətdə artan nüfuzundan geniş bəhs edərək bildirib ki, partiyanın qəbul etdiyi qərarların, irəli sürdüyü təşəbbüslərin əsasında dövlətə, xalqa xidmət dayanır. YAP yenilənməni, təkmilləşməni həyata keçirdiyi siyasətin önündə saxlayır.



O qeyd edib ki, Azərbaycanın qazandığı uğurlarda Yeni Azərbaycan Partiyasının öz payı, rolu var: "Dövrün, zamanın tələblərinə uyğun olaraq müəyyənləşdirilən hədəflər Azərbaycanın daha da qüdrətlənməsinə, güclənməsinə yönəlib. Dünyaya səs salan tarixi Zəfərimizin yaratdığı yeni reallıqlar Azərbaycanın mövqeyini dünya miqyasında daha da möhkəmləndirdi.

Ə.Tağıyev YAP Nizami rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Nizami rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Bəhruz Quliyev: "MEDİA-nın bu addımı yalnız təqdir olunmalıdır"



"Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən onlayn informasiya subyektləri arasında keçirilən müsabiqənin qaliblərinin müəyyən edilməsindən sonra ilk növbədə həmin veb-saytların, elektron informasiya resurslarının həm iqtisadi imkanları, həm də rəqabətə davamlılığı kifayət qədər artacaq. MEDİA-nın bu addımı yalnız təqdir olunmalıdır". Bu fikirləri SİA-ya "SƏS" Media Qrupunun baş direktoru Bəhruz Quliyev açıqlamasında deyib.

Onun sözlərinə görə, bu yenilik, yaxud təşəbbüs ilk addımdır və söz yox ki, qarşıdakı zamanlarda müsabiqənin daha da təkmilləşdirilməsi prosedurları həyata keçiriləcək: "Hesab edirəm ki, istənilən sahə üzrə atılan ilk addımlarda həm uğurlar, həm də müəyyən nöqsanlar olur və nöqsanlara görə yaranan narazılıqlar təkmilləşdirilmə yolu ilə aradan qaldırılır. Bu baxımdan, onu da qeyd etmək istərdim ki, MEDİA Agentliyinin reallaşdırdığı müsabiqələr gələcəkdə istər veb-saytlar arasında, istərsə də çap mediasında rəqabət meyllərini daha da artıracaq. İctimai rəydə, oxucuda daha çox rəğbət qazana bilən resurslar Agentlik tərəfindən müsabiqənin qalibləri elan ediləcək. Bu gün də məhz həmin prinsiplər əsas olaraq götürülüb. Xəbərin dolğunluğu, aktuallığı və operativliyi kimi meyarlar bu kimi seçimlərdə önəm daşımaqdadır. Ona görə də düşünürəm ki, həmkarımız olan hər hansı bir elektron media resursu qalib seçilmirsə, onlar bundan təəssüflənməsinlər. Əksinə, öz fəaliyyətlərində nöqsanlarını axtarmalı, hansı boşluqlara yol verdiklərini araşdırmalı, növbəti müsabiqədə qalib olmaq üçün media məkanına öz yeniliklərini gətirməlidirlər".

Bəhruz Quliyev əlavə edib ki, bu gün müsabiqədə qalib gəlmiş hansısa informasiya agentliyi, o cümlədən çap mediası növbəti müsabiqəyə qədər tələb olunan nəticəni əldə edə bilməzsə növbəti müsabiqədən kənarda qala, yaxud bu gün müsabiqədən kənarda qalan informasiya resursu isə həmin müsabiqənin qalibi elan edilə bilər.

"Ona görə də düşünürəm ki, müsabiqədə qalib gələ bilməyən media qurumları bundan heç də üzülməsinlər, əksinə, rəqabətli fəaliyyət mühitində özlərini əsasən oxucuları qarşısında təsdiq etsinlər", - deyən Bəhruz Quliyev vurğulayıb ki, bu, eyni zamanda, mətbuatımızın inkişafı baxımından təqdirəlayiq addım olar. Və bu həm də qeyri-dəqiq, yoxlanılmamış informasiyaların mətbuat resurslarında dərc olunmasının aradan qaldırılmasına, "qara piar"-ların, xüsusilə də plagiat yazıların sıradan çıxmasına şərait yaradacaq: "Bilirsiniz, bütün bunlar bir-birinə bağlı olan məsələlərdir və nəticə etibarı ilə real jurnalistikanın inkişafına da öz təsirini göstərir. Məncə, müsabiqədə qalib olmayan həmkarlarımız üzülməməli və fəaliyyətlərini dolğunlaşdıraraq gələcək müsabiqələrdə qalib olmaları üçün maksimum səy göstərib uğurlu fəaliyyətlərini ortaya qoymalıdırlar. Bu baxımdan, bütün media həmkarlarımıza uğurlar arzu edirəm".

"MEDİA-nın həyata keçirdiyi yeni layihəsinə isə uğurlar arzulayıram. Atılan hər ilk addım, verilən hər ilk qərar uğurlu gələcəyə doğru istiqamət götürür və daha geniş standartlara əsaslanaraq təkmilləşir. Əlbəttə, biz də bütün bunları nəzərə alaraq müasir media sahəsinə daha yeni nəfəs vermək üçün fəaliyyətimizi artıracağıq", deyə, SƏS Media Qrupun baş direktoru qeyd edib.

***Rövşən RƏSULOV***

# Fransa portalı erməni hərbçilərinin Azərbaycan ərazisini atəşə tutmasından yazıb




Fransanın "LaMinute" portalında Ermənistan hərbçilərinin Azərbaycan ərazisini atəşə tutmasından yazıb. AZƏRTAC xəbər verir ki, yazıda Azərbaycan Müdafiə Nazirliyinin bəyanatına istinadla erməni əsgərlərin ötən il müharibədən sonra imzalanmış üçtərəfli Bəyanatı pozduqları, Tovuz rayonu istiqamətində Azərbaycan Ordusunun mövqelərinə atəş açdıqları qeyd edilib.

Yazıda Qarabağın ötən əsrin 90-cı illərinin əvvəllərində ermənilər tərəfindən işğal edildiyi, lakin ötən ilin noyabrında Azərbaycan Ordusu tərəfindən azad olunduğu oxucuların diqqətinə çatdırılıb. Fransalı oxuculara, həmçinin keçmiş Dağlıq Qarabağ münaqişəsi haqqında da məlumat verilib.

# Qarabağ Dirçəliş Fondu Azərbaycan xalqının birlik və həmrəylik rəmzlərindən birinə çevriləcək



*Milli Məclisin deputatı, Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü Fatma Yıldırımın yap.org.az-a müsahibəsi*

**- Fatma xanım, tarixi Zəfərimizdən 7 ay keçməsinə baxmayaraq Qələbəyə gedən yolun təhlili davam edir, Ermənistanın ilərdir havadarlarının dəstəyi əsasında imitasiya naminə danışıqlar apardığı təsdiqlənir və belə bir reallıq önə çəkilir ki, hər bir münaqişəli məsələnin həllində güc və beynəlxalq hüquq əsasdır. Bununla bağlı fikirlərinizi bilmək maraqlı olardı...**

- Bu gün Azərbaycan xalqı qazanılan böyük Zəfərin qürurunu, sevincini, təntənəsini yaşamaqdadır. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsi nəticəsində bizi 30 ilə yaxın həsrətlə gözlədiyimiz Qarabağ torpaqlarına qovuşdurdu.

Qələbəyə addım-addım irəlilədik. Son 17 ildən artıq dövrdə möhkəm təməl üzərində Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hazırlıq işləri görüldü. Azərbaycan bütün sahələrdə gücləndi, müstəqilliyimizin, suverenliyimizin qarantı olan Ordumuzun maddi-texniki bazası möhkəmləndirildi, döyüş ruhu artırıldı, eyni zamanda, münaqişənin həlli üçün möhkəm hüquqi baza yaradıldı. Azərbaycanın 44 günlük Vətən müharibəsində Qələbəsi beynəlxalq hüquqa əsaslanan mövqeyimiz, həmçinin Azərbaycan Ordusunun rəşadəti sayəsində mümkün oldu. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin bəyan etdiyi kimi, biz öz torpaqlarımızda döyüşdük, heç kimin torpağında gözümüz yoxdur. Azərbaycanın ərazi bütövlüyü təmin edilməli, Ermənistan silahlı qüvvələri ərazimizdən çıxmalıdırlar. Azərbaycanın hərbi-siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci üçtərəfli Bəyanatın imzalanması işğalçı dövlətə və havadarlarına bu mesaj oldu ki, ədalət, beynəlxalq hüquq deyilən məfhumlar mövcuddur və onların fərqli şəkildə, maraqlara uyğun olaraq tətbiq edilməsi problemlərə səbəb olur. Beynəlxalq hüququn norma və prinsiplərinin tətbiqi üçün vahid mexanizm müəyyənləşdirilməli, ikili standartlar bir kənara qoyulmalı, ədalət, beynəlxalq hüquq öz sözünü deməlidir. Azərbaycan Ordusu dünyanın nüfuzlu dövlətlərinin 30 ilə yaxın dövrdə edə bilmədiklərini 44 gündə etdi. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra olundu.

**- Hazırda işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması, Böyük Qayıdışın gerçəkləşdirilməsi qarşımızda dayanan əsas məsələlərdəndir. Bu istiqamətdə görülən işləri necə şərh edərdiniz?**

- Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində bütün infrasturktur, sosial, iqtisadi, mədəni obyektlər, tarixi, dini abidələr tamamilə məhv edilib. Bu səbəbdən bizi qarşıda çox vacib bərpa-yenidənqurma işləri gözləyir. İşğaldan azad edilmiş şəhərlərimiz və kəndlərimiz yerlə-yeksan olunduğu üçün, sözün əsl mənasında, müasir dövrün tələblərinə uyğun yenidən qurulmalıdır.

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə də bu məsələyə xüsusi diqqət yönəldərək bildirmişdir ki, biz indi böyük quruculuq işlərinə start vermişik. Müharibədən cəmi 7 ay keçib, nə qədər böyük işlər görülüb. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə misli görünməmiş bərpa və quruculuq işləri aparılır. Nəyin hesabına? Təbii ki, hazırlıq işlərinin hesabına. Bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır.

Ölkə Prezidentinin işğaldan azad olunmuş ərazilərimizə hər səfəri yeni sosial obyektlərin təməlinin qoyulması ilə yadda qalır. Onu da qeyd edim ki, möhtərəm Prezidentimiz İlham Əliyevin Sərəncamı əsasında təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" postmüharibə dövründə görüləcək bütün işləri və onların icra mexanizmlərini özündə ehtiva edir.

Postmüharibə dövrünün bərpası böyük maliyyə vəsaiti və resursların səfərbərliyini tələb edən uzunmüddətli bir prosesdir. Buna görə də bu mərhələdə iqtisadi güclərin birləşdirilməsi sözügedən prosesin sürətli, şəffaf və səmərəli formada həyata keçirilməsinə şərait yaradacaq. Bu dövrdə dövlət - özəl sektor əməkdaşlığının Qarabağın dirçəlişinə töhfəsi böyük ola bilər. Belə ki, dövlətin maliyyə və iqtisadi resurslarının sərhədsiz olmadığını nəzərə alsaq, müxtəlif layihələrdə özəl təsisatların bu prosesə cəlb olunması həmin bölgənin bərpa prosesini tezləşdirə və eyni zamanda, qurulan infrastruktur layihələrinin müasirliyini, rəqabət qabiliyyətliliyini artıra bilər.

Hal hazırda keçmiş məcburi köçkünlərimiz həsrətlə öz yurd-yuvalarına qayıdacağı günü gözləyir. Mən də bir Şuşalı kimi bu prosesləri yaxından izləyərək, qürur hissi keçirirəm. Çünki illərdir həsrətlə gözlədiyimiz torpaqlara qədəm qoymuşuq, Qarabağın döyünən ürəyi Şuşaya qovuşmuşuq. Ötən ay uzun illərdən sonra Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, Cıdır düzündə təşkil olunan "Xarıbülbül" festivalı zamanı keçirdiyimiz sevinc və iftixar hisslərini sözlərlə ifadə etmək çox çətindir. Əminəm ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə həmrəylilik göstərərək, tezliklə işğaldan azad olunmuş bütün rayonlarımızda belə festivallar və tədbirlər tez-tez keçiriləcək. İllərdir torpaq həsrəti çəkən köçkünlərimizin sevincinin birlikdə şahidi olacağıq.

**- Fatma xanım, "Qarabağ Dirçəliş Fondu"nun yaradılmasını və fəaliyyətini necə dəyərləndirirsiniz?**

- Quruculuq işlərinə dəstək vermək hər bir azərbaycanlının arzusudur. Çünki bu dəstək həm də bizim qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olacaq. Məhz bütün bu vacib məqamları nəzərə alaraq Prezident İlham Əliyev 4 yanvar 2021-ci il tarixdə "Qarabağ Dirçəliş Fondu"nun yaradılması haqqında fərman imzalayıb.

Hazırkı məqamda Qarabağ Dirçəliş Fondunun yaradılmasına çox böyük ehtiyac var idi. Biz artıq Fondun fəaliyyətinin gerçək nəticələrini də görməkdəyik.

Qarabağ Dirçəliş Fondunun dinamik fəaliyyət qurması, bu fəaliyyət çərçivəsində, ölkə daxilindən və xaricindən gələcək qlobal və irimiqyaslı, layihələr bu prosesdə böyük bir imkan qaynağı olacaq. Fondun yaradılması bir daha göstərir ki, Azərbaycan dövlətinin və Prezidentinin məqsədi təkcə ərazilərimizin erməni işğalından azad edilməsi deyil, eyni zamanda, dədə- baba torpaqlarımızı hərtərəfli bərpa edərək, Azərbaycanın sabit inkişaf edən böyük hissəsi ilə bərabərləşdirilməsi və ölkənin sosial-iqtisadi sisteminə daxil edilməsidir.

Əminəm ki, Fond Azərbaycan xalqının birlik və həmrəylik rəmzlərindən birinə çevriləcək. Məhz bu Fondun dəstəyi ilə işğaldan azad edilmiş rayon və bölgələrimiz ən qısa zamanda ölkənin inkişaf etmiş regionları sırasında öz layiqli yerlərini tutacaq. Necə ki, müharibə dövründə xalqımız bir yumruq kimi birləşərək böyük Zəfər qazandı, eləcə də Qarabağın dirçəlməsi istiqamətində işlərin sürətləndirilməsinə təkan verəcək.

Bu gün həmvətənlərimizin Fonda böyük həvəslə müəyyən məbləğdə vəsaitlər köçürmələri millimənəvi birliyimizi möhkəmləndirir, Vətən, torpaq, yurd sevgisini daha da artırır. Fondun hesabına vəsait köçürənlər Qarabağın dirçəlişində öz paylarının olması ilə fəxr edirlər. Çünki hazırda dövlətimizin Qarabağ siyasətinin konkret təzahürü olan bu Fondun xətti ilə görüləcək işlər nəticəsində ərazilərimiz tamamilə yenidən qurulacaq, müasir şəhər və kəndlər tikiləcək, bölgəyə dinc, təhlükəsiz, rahat həyat gələcək. Ən önəmlisi səbirsizliklə öz ata-baba yurdlarına qayıtmağı gözləyən köçkünlərimiz daha qısa zamanda daimi yaşayış yerlərinə qayıdacaqlar.

**- İkinci Qarabağ müharibəsinin reallıqlarının təbliği qarşımızda dayanan əsas vəzifələrdəndir. Qarabağ Dirçəliş Fondunun bu işə dəstəyini necə görürsünüz?**

- İyunun 30-da keçirilən Qarabağ Dirçəliş Fondunun "Karabakh.Center" layihəsinin təqdimatı bu reallığı aydın şəkildə ifadə edir. İnformasiya müharibəsinin hələ də davam etdiyi bir dövrdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən "Karabakh. Center" web saytın (portalın) yaradılması böyük əhəmiyyət kəsb edir. Çünki "Karabakh. Center" portalı vasitəsilə Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı torpaqlarımızda törədilən vandalizm dünya ictimaiyyətinə çatdırılacaq.

Digər vacib məqam ondan ibarətdir ki, portalın təbliği işinə vətəndaş olaraq hər birimiz, bütün cəmiyyətimiz öz töhfəsini verməlidir. Yəni, bu portal vasitəsilə erməni vandalizminin dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırılması bizim özümüzdən çox asılıdır. Nə qədər fəal təbliğat aparsaq, dünya birliyi bu barədə daha çox məlumatlı olacaq. Düşünürəm ki, təbliğat işində xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız da çox fəal iştirak etməlidirlər.

Mən belə bir önəmli təşəbbüslə çıxış etdiyinə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya, portalı hazırlayıb ərsəyə gətirən Qarabağ Dirçəliş Fonduna dərin təşəkkürümü bildirirəm.

Qarabağ Dirçəliş Fondu azad olunmuş ərazilərimizin bərpa prosesində könüllülük və bərabərhüquqluluq prinsipi əsasında iştirak etmək istəyən bütün vətəndaşlarımız üçün yaradılmış vahid bir platformadır. Fond xalqımızın Qarabağın bərpasında birlik və iştirakının təminatçısıdır. Prezident İlham Əliyevin vurguladığı kimi, müharibə bizim gücümüzü, əyilməz iradəmizi, birliyimizi, qələbə rəmzinə çevrilən dəmir yumruq öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də, ölkəmizin gücü də var və həmişə olacaq.

Qarabağ Dirçəliş Fonduna gələcək fəaliyyətində uğurlar, "Karabakh. Center" portalının xalqımıza, dövlətimizə xeyirli olmasını, tarixi Zəfərimizlə bağlı reallıqların təbliğinə böyük töhfələr verməsini diləyirəm.

# DSK yanında Statistika Şurasının növbəti iclası keçirilib



Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının növbəti iclası keçirilib. SIA-nın verdiyi məlumata görə, əvvəlcə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov iclasın gündəliyində duran məsələlər barədə Şura üzvlərinə məlumat verib. Bildirib ki, Azərbaycan Respublikası Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün tətbiqində pilot ölkə olmaqla hasilat sənayesində şəffaflıq (HSŞ) və hesabatlılıq üzrə beynəlxalq səyləri daim dəstəkləmiş, beynəlxalq standartlar əsasında HSŞ üzrə hesabatlılığın təmin edilməsi məqsədilə ölkədə fəaliyyət göstərən xarici və yerli şirkətlərlə sıx əməkdaşlıq edərək lazımi tədbirlər həyata keçirmiş, o cümlədən müvafiq hesabatların hazırlanaraq ictimaiyyətə açıqlığını təmin etmişdir. Bununla yanaşı, son illərdə hesabatlılığı təşviq edən beynəlxalq prinsip və standartlarda hesabatvermə mexanizmlərinin səmərəliliyinin artırılması və onların daha çevik işləməsi məqsədilə mühüm dəyişikliklər nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidentinin "Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 28 iyul tarixli 1114 nömrəli Fərmanı ilə dayanıqlı hesabatlılığın tətbiqi üzrə yeni tələblər müəyyənləşdirilmiş və HSŞ üzrə hesabatlılığın və bu sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsinin, Azərbaycan Respublikasında HSŞ üzrə hesabatların davamlı toplanmasının və ümumiləşdirilmiş rəsmi statistika məlumatlarının ictimaiyyətə açıqlanmasının təmin edilməsi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə həvalə edilmişdir. Dövlət Statistika Komitəsi tərəfindən sözügedən Fərmanın icrasını təmin etmək məqsədilə ötən dövr ərzində müvafiq tədbirlər həyata keçirilmişdir.

Daha sonra Komitə sədri son illər inzibati məlumatlardan istifadəni artırmaq istiqamətində aparılan işlər barədə şura üzvlərinə məlumat verərək qeyd edib ki, inzibati məlumatlar rəsmi statistika üçün xüsusi əhəmiyyətə malikdir. Statistik vahidlərin üzərinə düşən məlumat yükünün azaldılması üçün onlar tərəfindən müxtəlif dövlət qurumlarına təqdim edilən məlumatlar üzrə təkrarçılığın aradan qaldırılması, inzibati vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar dövlət qurumları tərəfindən toplanan məlumatların rəsmi statistikada istifadəsinin genişləndirilməsi, həmin məlumatların Dövlət Statistika Komitəsinin statistik məlumat bazalarına inteqrasiyası ilə bağlı zəruri tədbirlərin görülməsini təmin etmək məqsədilə müvafiq işçi qrupları yaradılmışdır. İşçi qruplarına verilmiş tapşırıqların icrası olaraq, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil nazirliklərinin, eləcə də Dövlət Miqrasiya Xidməti və Dövlət İmtahan Mərkəzinin məlumat bazalarının inteqrasiyasına dair hazırlanmış müvafiq Razılaşmalar imzalanmış və bununla əlaqədar hazırda zəruri təşkilati, texnoloji və texniki tədbirlər həyata keçirilməkdədir.

İclas zamanı Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Qasım Əliyev "Dövlət qurumlarının məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına inteqrasiyası ilə bağlı görülmüş işlər haqqında", Sənaye və tikinti statistikası şöbəsinin müdiri Elman Qasımzadə "Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı həyata keçirilmiş tədbirlər haqqında" məruzələrlə çıxış edərək ətraflı məlumat veriblər.

Müzakirələrlə davam edən iclasda Şura üzvləri tərəfindən müxtəlif təkliflər səsləndirilib, görülmüş işlər müsbət qiymətləndirilib və bu istiqamətdə işlərin davam etdirilməsi məqsədəuyğun hesab edilib.




# YAP Pirallahı rayon təşkilatının III hesabat konfransı keçirilib













İyulun 1-də Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının videoformatda III hesabat konfransı keçirilib. SİA-nın verdiyi məlumata görə, əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Gündəlik təsdiq edildikdən sonra YAP Pirallahı rayon təşkilatının sədr əvəzi Əli Kərimov hesabat məruzəsi ilə çıxış edib.

Hesabat məruzəsində bildirilib ki, YAP Pirallahı rayon təşkilatı fəaliyyətində Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin ideyalarının və partiyamızın Sədri, Prezident İlham Əliyevin uğurlu siyasətinin əhali arasında geniş şəkildə təbliğ olunması əsas yer tutur.

Qeyd olunub ki, hazırda YAP Pirallahı rayon təşkilatı üzvlərinin sayı 6 201 nəfərdən ibarətdir ki, bu da əhalisinin sayı 20 mindən bir qədər çox olan rayon üçün böyük göstəricidir. 2017-ci ilin mayında keçirilmiş II konfransdan bu günədək ötən müddətdə təşkilatın fəaliyyəti məhsuldar olub, partiya rəhbərliyi tərəfindən verilən tapşırıqlar və qarşıya qoyulan vəzifələr yerinə yetirilib. 2017-2021-ci illəri əhatə edən hesabat dövrü ərzində rayon təşkilatı tərəfindən partiya sıralarına 1795 nəfər qəbul edilib. Daha sonra YAP Pirallahı rayon təşkilatı Nəzarət-Təftiş Qrupunun sədri Anar Babayevin hesabat məruzəsi dinlənilib. Müzakirələr zamanı YAP Pirallahı rayon təşkilatının Şura üzvü, Pirallahı rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, YAP Pirallahı rayon təşkilatının Gənclər Birliyinin sədr müavini Aysel Qəribli, "Abşeronneft" NQÇİ ərazi ilk partiya təşkilatının sədri, YAP Pirallahı rayon təşkilatının Şura üzvü Şamil Kazımov və YAP Pirallahı rayon təşkilatının Şura üzvü, 168 saylı orta məktəbin müəllimi Sevda Alxasova çıxış edərək YAP Pirallahı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətinə münasibət bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının ötən illər ərzində böyük inkişaf yolu keçdiyini bildirib. O qeyd edib ki, fəaliyyət göstərdiyi 29 il ərzində partiyamız möhtəşəm uğurlara imza atıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP Cənubi Qafqazın ən böyük siyasi qüvvəsinə çevrilib.

Əhliman Tağıyev Pirallahı rayon təşkilatının ən fəal yerli strukturlardan biri olduğunu deyib, həmçinin yeni mərhələdə partiyanın yerli təşkilatlarının üzərinə düşən vəzifələrdən də ətraflı şəkildə bəhs edib. Qeyd edək ki, YAP Pirallahı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# MEDİA Agentliyi tərəfindən çap mediası üçün təşkil edilən müsabiqə nəticələrinin ELANI

***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) çap mediası üçün təşkil edilən müsabiqə nəticələrini elan edib. Agentlikdən SİA-ya verilən məlumata görə, müsabiqədə qalib gələn çap mediası subyektləri aşağıdakılardır:***

"525-ci qəzet"
"Şərq" qəzeti
"Səs" qəzeti
"Bakı-xəbər" qəzeti
"Yeni Müsavat" qəzeti
"Yeni Azərbaycan" qəzeti
"Xalq cəbhəsi" qəzeti
"Azernews" qəzeti
"Novoye Vremya" qəzeti
"Həftə içi" qəzeti
"Hürriyyət" qəzeti
"Ədalət" qəzeti
"Türküstan" qəzeti
"Olaylar" qəzeti
"Nedelya" qəzeti
"Hərbi and" qəzeti
"Unikal" qəzeti
"Paralel" qəzeti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən çap mediası subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin nəticələri ilə buradan tanış ola bilərsiniz:

# Turizm üçün ən bəyənilən ölkələr



Müasir dövrdə böyük şəhərləri xarici turistlərsiz təsəvvür etmək olmur. İlin müəyyən aylarında, əsasən yay və qış aylarında bir çox insan xarici ölkələrə və ya rayonlara səyahət edir. Turizm artıq bir çox təsərrüfat həyatında əhəmiyyətli rolu olan iqtisadiyyatın bir sahəsinə çevrilmişdir. Xatırladaq ki, turizm ölkələrin iqtisadi vəziyyətinə müsbət təsir göstərir və dünya ixracatının dəyərcə 5 faizi onun payına düşür. Bir çox ölkələrdə turizmin inkişafına xüsusi diqqət ayrılır və böyük məbləğdə dövlət tərəfindən vəsait ayrılır.

Turizm üçün əlverişli olan bölgədə müxtəlif əyləncələr və istirahət guşələri yaradılır. Turizm mərkəzləri yerli və xarici qonaqlara xidmət göstərir. Azərbaycan Respublikası digər MDB dövlətləri kimi beynəlxalq turizm inkişafına gec başlamışdır. Bu səbəbdən turizm sənayesinin formalaşması son illərə təsadüf edir. Amma qeyd etmək lazımdır ki, qısa müddət ərzində paytaxt Bakıda və digər rayonlarda beynəlxalq standartlara cavab verən otellər və istirahət kompleksləri tikilmişdir.

Ümumiyyətlə, beynəlxalq turizmin inkişafı əhalinin maddi və mədəni səviyyəsindən eyni zamanda əmək haqlarından asılıdır. Qeyd edək ki, siyasi sabitliyin möhkəm olması turist axını üçün əlverişli şərait yaradır. 2 ilə yaxın müddətdir ki, Covid-19 infeksiyasının yayılmasına görə bütün dünyada turizm durğunlaşmışdı. Lakin Covid-19 göstəricilərinin dünya üzrə azalması bu il turizmin keçən ilə nəzərən normallaşmasına səbəb oldu. Keçən il turizm böhran vəziyyətində idi.

Bir çox şəxs səyahət etməyi planlaşdıran zaman əsasən bölgənin flora-faunasına və ekologiyasına diqqət edir. Ölkəmizin bölgələrində bir çox turizm mərkəzi yaradılıb. Məsələn, Quba, Qəbələ, Naxçıvan, Şəki, Şamaxı, Lerik, İsmayıllı, Nabran və s.

Yay vaxtı vətəndaşlarımız ya meşəlik, dağlıq zonalara, ya da, dəniz, çimərlik olan zonalara gedirlər. İstirahət üçün seçilən zonada öz maddi vəziyyətlərinə və zövqlərinə görə qonaqlamağa məkan seçirlər. Yay vaxtı xarici ölkələrdə istirahət etməyi seçən vətəndaşlarımız da az deyil. Xarici ölkələrdən - Türkiyə, Gürcüstan, Ukranya, Yunanıstan, ABŞ, İtalya, Fransa, İspanyaya səyahət üçün tələbat çoxdur. Yay vaxtı ölkəmizdə olan otellərin qiymətinin baha olmasından bir çox vətəndaş şikayət edir. SİA olaraq vətəndaşlarımızın bu barədə fikirlərini öyrənmək üçün sorğu keçirdik.

Şəhər sakini Ülvi Hüseynov: "Əmək haqqım 250 manatdır. Bilirsiniz ki, ölkəmizdəki otellərin 1 günlük qiyməti 50 manatdan - 300 manata qədər dəyişir. Bu səbəbdən mən otellərdə qalmağı tövsiyə etmirəm. Lakin qiymətlər xarici qonaqlar üçün uyğundur. İstirahət etdiyim zonaya yaxın ev kirayə edib, orada qalıram".

Şəhər sakini Səadət Mustafayeva: "Azərbaycandakı otel qiymətləri məni qane etmir. Dincəlmək üçün rayona getmək çox baha başa gəlir. Fikrimcə, xarici ölkələrdə istirahət etmək daha ucuz olur. Xüsusilə Türkiyə dövlətini istirahət üçün daha çox bəyənirəm".

Şəhər sakini Cəlil Kazımlı: "Azərbaycanda istirahət etmək üçün otellərə müraciət edirik. Lakin qiymətlər fikrimcə, biraz daha münasib ola bilər. Münasib qiymətli otellərin xidməti isə qənaətbəxş deyil".

***Qönçə Quliyeva***

ARAŞDIRMA

# İki qardaş dövlətin “göz dağı” əməliyyatı



## Türkiyə-Azərbaycan birgə hərbi təlimləri -”Bir millət, iki dövlət” birlik-qardaşlığın növbəti təzahürüdür

***Bu, tarixən belə olub və bu gün də belədir. Ən çətin anların sınağından çıxan, dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “Bir millət, iki dövlət” tezisinə əsaslanan reallığın təcəssümü olan bu birlik, qardaşlıq işğalçı Ermənistanı həmişə içində yandırıb. Çünki Ümummilli Lider Heydər Əliyevin “Bir millət, iki dövlət”, Mustafa Kamal Atatürkün “Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimiz” kəlamları bu gün dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək strateji tərəfdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir.***



### Prezident İlham Əliyev: “Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir”



“Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir” bu fikirləri səsləndirən cənab Prezident İlham Əliyev bir daha Azərbaycan və Türkiyə dövlətlərinin arasına heç bir 3-cü dövlətin girə bilməyəciyini, zaman keçdikcə bu iki qardaş dövlətin daha da möhkəm bağlarla bir birinə bağlanacağını və hər iki dövlətin gələcək inkişafında qardaşlığın və birliyin çox böyük əhəmiyyəti olacağını qeyd etmişdir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirmişdir. Prezident İlham Əliyev həmişə Türkiyənin nümayəndələrinin olmadığı Beynəlxalq tədbirlərdə Türkiyə əleyhinə hər hansısa bir fikir səsləndirən olduqda onların cavabını Türkiyə burda yoxdur mən varam, Azərbaycan var deyə vermişdir. Bu mesajlar bütün dünya dövlətlərinə Azərbaycanın və Türkiyənin bir birinə necə möhkəm bağlarla bağlı olduqlarını, qardaşlığın və birliyin sözdə yox, əməldə olduğunu göstərmişdir.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycanı birmənalı olaraq dəstəkləyən Türkiyə dövləti daim öz qardaşının yanında olduğunu və işğal altında olan torpaqlarımızın azad olunması üçün nə lazımdırsa edəcəyini, sona qədər Azərbaycanı dəstəkləyəcəyini bütün dünya dövlətlərinin qarşısında açıq şəkildə bəyan etmişdir.

### Prezident Rəcəb Tayyib Ərdoğanın “Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır”

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın qətiyyətli və dönməz addımları bütün dünya dövlətlərinə Azərbaycanın tək olmadığını və bu mübarizədə Türkiyənin var gücü ilə öz qardaşının yanında olduğunu göstərdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır” mesajı hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqə artaraq davam etməkdədir: “Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır”.

### Türkiyə-Azərbaycan təlimləri - düşmənə növbəti göz dağı əməliyyatı

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, iyunun 28-dən iyunun 30-dək Bakıda “Mustafa Kamal Atatürk-2021” birgə döyüş atışlı taktiki təlimin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsidir. Təlimə 600 nəfərədək şəxsi heyət, 40-dək tank və digər zirehli texnika, 20-dək müxtəlif çaplı artilleriya qurğusu və minaatan, 7 ədəd döyüş və nəqliyyat helikopteri, 3 ədəd müxtəlif təyinatlı pilotsuz uçuş aparatı, 50-dək avtomobil texnikası cəlb olunub.

İşğalçı ölkəni və havadarlarını iki dövlət bir millət olan Azərbaycan-Türkiyənin hər bir uğuru narahat edib və bu gün də narahat edir. Dostlar sevinir, qürurlanır, düşmənlər vahimələnir. Ancaq hamı bilir ki, Azərbaycan-Türkiyə birliyi regional və beynəlxalq təhlükəsizliyin təminatçısıdır. Bu qardaşlıq və müttəfiqlik siyasi, iqtisadi, sosial, mədəni və başqa sahələrdə əməkdaşlığa üstünlük verir. Bakı və Ankara bu istiqamətdə fəaliyyət göstərmək istəyən xoşməramlılara qapılarını açıq saxlayırlar. Azərbaycan-Türkiyə birgə hərbi təlimləri bu xoş məramları bir daha təsdiqləyir. Və keçirilən hərbi təlimlərin çox böyük əhəmiyyəti və faydası var. Azərbaycan Prezidentinin dediyi kimi: “Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlim keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bu təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu, Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür”.

Bu gün dünya bir daha Ulu Öndər Heydər Əliyevin bir millət iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı qardaşlıq münasibətlərinin sönməz, əbədi olduğunun şahidi oldu və heç şübhəsiz ki, bu birlik dosta sevinc, düşmənə göz dağıdır! Azərbaycan ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən Bakıda keçirilən “Mustafa Kamal Atatürk - 2021” birgə döyüş atışlı taktiki təlimləri regional sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verməklə yanaşı, həmçinin bir daha göstərdi ki, Azərbaycan-Türkiyə çətin gündə də, şad gündə də bir-birinin yanındadır. Və bu gün Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da belə olacaq: Güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır! Azərbaycan-Türkiyə “Bir millət, iki dövlətdir!”. Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı və birliyi!

***RƏFİQƏ KAMALQIZI***

## MEDİA Agentliyinin onlayn media üçün təşkil etdiyi müsabiqənin nəticələri bəlli oldua



Medianın İnkişafı Agentliyi tərəfindən onlayn media subyektləri arasında keçirilən müsabiqənin qalibləri müəyyənləşib. Medianın İnkişafı Agentliyindən SIA-ya verilən məlumata görə, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən onlayn media subyektlərinin (veb-saytların) inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin qalibləri məlum olub.

Müsabiqənin qalibləri aşağıdakılardır:

- Qazet.az
- Bizim.media
- Azxeber.com
- Yenicag.az
- Aportinfo.az
- Sonxeber.az
- Qaynarinfo.az
- Sportal.az
- Azvision.az
- Tezadlar.az
- Sia.az
- Football-plus.az
- Cebhe.info
- Editor.az
- Bizimyol.info
- Apasport
- Avropa.info
- Bakupost.az
- 7news.az
- Demokrat.az
- Offisideplus.az
- Minval.az
- Qol.az
- Moderator.az
- Yenisabah.az
- Publika.az
- Visiontv.az
- Qafqazinfo.az
- Day.az
- Sfera.az
- Anews.az
- Olke.az

# “Hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi, rifahının yüksəldilməsi daim dövlətimizin diqqət mərkəzindədir”



***Son illərdə hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə əlverişli şərait yaratmışdır. Yeni hərbi hissələrin yaradılması və ya əsaslı şəkildə yenidən qurulması, həmçinin hərbçilərimizin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində atılan addımlar əsgər və zabitlərimizin döyüş ruhunu daha da artırmışdır.***

Bu fikirləri ölkəmizdə hərbçilərə göstərilən diqqət və qayğıdan danışarkən Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirib.

Ç.Qənizadə deyib ki, ümumiyyətlə, Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi və qorunub saxlanması həmişə dövlətimizin prioritet vəzifələrindən olub. Ölkənin hərbi qüdrətinin artırılması, hərbi-sənaye kompleksinin inkişaf etdirilməsi, silahlı qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi və mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldilməsi torpaqlarımızın işğaldan azad edilməsində mühüm rol oynayıb.

Hüquq müdafiəçisi xatırladıb ki, 1993-cü ilin ikinci yarısından başlayaraq ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində həyata keçirilən tədbirlər respublikamızın hərbi gücünün artırılması istiqamətində ardıcıl və mühüm işlər görülməsinə imkan yaratmışdır. Həmin vaxtdan başlayaraq, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində tədbirlər uğurla davam etdirilib. Hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əsaslı işlər görüldü, mühüm əhəmiyyətli qərarlar qəbul olunub.

Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi və ordumuzun maddi-texniki bazasının müasirləşdirilməsinin prioritet vəzifə kimi qarşıya qoyulduğunu diqqətə çatdıran Ç. Qənizadə bildirib ki, bu sahədə tarixi əhəmiyyətli işlərin görülməsi Silahlı Qüvvələrimizi dünyanın 50 ən güclü ordu sıralarına qoşub. O deyib: “Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin yaradılması , hərbi qulluqçuların sosial məsələlərinin həlli, onların əməkhaqlarının davamlı olaraq artırılması təsdiqləyir ki, dövlətimizin başçısı bu sahənin inkişaf etdirilməsini ən ümdə vəzifə kimi daim diqqət mərkəzində saxlayıb”.

Ç.Qənizadə qeyd edib ki, hərbçilərə verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, qarşılaşdıqları problemlərin həlli həyatını Vətəni müdafiə etmək kimi şərəfli vəzifəyə həsr edən hərbi qulluqçuların hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarını bir daha sübuta yetirir. Silahlı Qüvvələrdə 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya Prezidentin fərmanı ilə indiyədək dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilib. Bütün bunlar təsdiqləyir ki, ordu quruculuğu prosesində, əlbəttə ki, hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur.

Son illərdə əsgər və zabitlərimizin xidmət şəraitinin böyük dərəcədə yaxşılaşdığını deyən hüquq müdafiəçisi dedi: “Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75-80 faizi beynəlxalq standartlara tam cavab verir. Hərbçilərimizin sosial müdafiəsinin daha da gücləndirilməsi dövlət başçımızın qarşıya qoduğu prioritet vəzifədir. Prezidentin “İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında” Sərəncamı Silahlı Qüvvələrin Ali Baş Komandanının və dövlətin hərbçilərə diqqət və qayğısının növbəti nümunəsidir”.

Sərəncama əsasən, işğaldan azad olunmuş ərazilərdə Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına 2021-ci il iyulun 1-dən Azərbaycan Respublikası Prezidentinin əlavəsi müəyyən edilir. Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçuların aylıq vəzifə maaşlarının 20-60 faizi həcmində nəzərdə tutulub. - Dövlət başçımızın sərəncamı ilə iyunun 24-də 76 mindən artıq hərbçinin orden və medallarla təltif olunması, iyunun 25-də isə onlara maaşlarına 20-60 faizi həcmində əlavələri nəzərdə tutan sərəncamın imzalanmasının bu sahədə çalışanlara diqqət və qayğının bariz nümunəsidir.

Bu Sərəncamın hərbçilərin sosial-məişət şəraitini daha da yaxşılaşdıracağına, şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəlməsinə çox böyük təkan verəcəyinə əminliyini bildirən Ç.Qənizadə deyib: “Təbii ki, hərbi qulluqçular üçün ilk sırada Vətənə xidmət, onu qorumaq dayanır. Bu Sərəncam əsgər və zabitlərin üzərinə düşən məsuliyyəti daha da artıracaq”.

---

# Azərbaycanın uğurları dünya mətbuatının gündəmindədir




**44** günlük Vətən müharibəsinin gedişi, Azərbaycan ordusunun qalibiyyəti beynəlxalq aləmin diqqət mərkəzində oldu və bununla bağlı dünya mətbuatında silsilə məqalələr dərc edildi, televiziyalarda reportajlar yayımlandı. Bu müharibəyə demək olar ki, bütün dövlətlər diqqət kəsilmişdi. Müharibənin qaynar nöqtələrinə ezam olunan dünyanın aparıcı media qrumlarının nümayəndələri bununla bağlı reportajların hazırlanmasına, mətbuatda məqalələrin yer almasına çox maraqlı idilər. Əlbəttə ki, hər bir iştirakçı və ya müharibənin gedişatını izləyən kəs Azərbaycan ordusunun gücünü, mütəşəkkilliyini diqqətdən qaçırmırdı.

Ölkəmizin dinamik inkişafı, güclü ordu quruculuğu, beynəlxalq münasibətlərdə Azərbaycanın milli maraqlarının müdafiəsi və təmin edilməsi ölkəmizin nüfuz və mövqeyini yüksəldib. Artıq Azərbaycan ordusu 90-cı illərin ordusu deyil. Nizami və güclü Azərbaycan ordusu var. Müasir silahlarla təchiz olunmuş ordumuz var və 44 günlük döyüş meydanında öz sözünü deyən bir ordunun gücü hamını heyrətləndirdi.

Hər zaman ölkəmizdə baş verən ictimai-siyasi, mədəni hadisələri işıqlandıran dünya mətbuatında bu dəfə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə “Gülüstan” sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündəki çıxışı yer alıb. Belə ki, Misirin nüfuzlu “Əl Masr Əl Yom” nəşrində dövlət başçısının nitqindən bəzi məqamlar dərc edilib. Məqalədə Cənab İlham Əliyevin çıxışına istinadən edilərək, müharibədən sonra artıq müvafiq göstərişlərin verildiyi, yeni kontraktlar imzalandığı, yeni silahların, müasir texnologiyaların əsasında texnikanın alınması prosesinin başlandığı diqqətə çəkilib. “Ermənistan dərk etməlidir ki, Azərbaycan bundan sonra da güclənəcək və bu, şübhəsizdir”,- deyən Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı əlavə edib ki, orduda struktur islahatları da təsdiq edilib və hərbçilərin say tərkibi artırılacaq.

Qalib Azərbaycan xalqı ilk dəfə Silahlı Qüvvələr Gününü bu cür tarixi nailiyyət şəraitində qeyd etdi. Cənab Prezident nitqində “Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında Mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir.”

Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə keçirdiyi görüş geniş işıqlandırılıb. Anadolu Agentliyi, “Haber Global”, “TRT Haber” telekanalları, “Yeni Şafak”, “Türkiye” qəzetləri və digər media qurumları Prezident İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun qazandığı rəşadətli Qələbədən sonra regionda yaranmış yeni siyasi vəziyyəti, Azərbaycanın bölgədə sülh və sabitlik yaratmaq istiqamətində sərgilədiyi dəyişməz mövqeyini çoxsaylı oxucuların diqqətinə çatdırıblar.Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir. Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apardı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib dövlət oldu.

***Zümrüd BAYRAMOVA***

---

# Tovuzda gizli qəbirlər aşkarlandı video

Tovuzda XV-XVII əsrlərə aid olan məscid-türbə kompleksi və qədim qəbirlər aşkarlanıb. AMEA-nın Tovuz Ekspedisiya Qrupunun rayonun Vahidli kəndi ərazisində apardığı araşdırmalar zamanı iki otaqlı ev qalıqları tapılıb. Burada XV əsrə aid olan Sultan Körpüsünün olması da onu deməyə əsas verir ki, bu evlər ticarət yolunun üzərində inşa edilib. Hazırda el arasında Qala Duzu adlanan ərazidə tapılan maddi mədəniyyət nümunələri burada geniş miqyaslı qazıntı işlərinin aparılması üçün AMEA-ya göndərilib.




---

# “Hərbi təlimlər iki dövlətin maraqlarına xidmət edir”

“Mustafa Kamal Atatürk-2021” birgə təlimi planlaşdırılmış və Azərbaycan-Türkiyə hərbi əməkdaşlıq çərçivəsində keçirilib. Təlimin məqsədləri də məlumdur. İlk növbədə hərbçilərin birgə fəaliyyətinin təkmilləşdirilməsi və komandir heyyətinin qarşıda qoyulan tapşırıqları yerinə yetirməsi, qərar qəbul edilməsidir. Hər bir təlim əhəmiyyətli olduğu kimi bu da vacib təlimdir. Təlimdən o yana döyüşdür”. Bunu SİA-ya açıqlamasında hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib.



Onun sözlərinə görə, Azərbaycanla Türkiyənin birgə təlim keçirməsi ilk növbədə Azərbaycan ordusunun peşəkar hərbçilərinin nəyə qadir olduğunu göstərir: “Türkiyə ordusunun da imkanları genişdir və Türkiyə NATO-nun ən güclü ordularından biridir. Biz Azərbaycanın nəyə qadir olduğunu 44 günlük müharibədə də gördük. Əlbəttə, Azərbaycan-Türkiyə bölmələrinin birgə təlim keçirməsi Azərbaycanın müharibədən çıxmış peşəkar heyətin təcrübəsinin tətbiqi kimi olacaq. Mən düşünürəm ki, bu təlim türk hərbçi qardaşlarımıza da maraqlı olacaq”.

Şair Ramaldanov sözlərinə belə davam edib: “İki dövlətin birgə fəaliyyəti həmişə maraqlı olub. Təbii ki, bu bizim qardaşlığımızı, dostluğumuzu daha da möhkəmləndirəcək. Digər tərəfdən təlimlərin keçirilməsi onu göstərir ki, dostlar buna sevinir. Təlim düşmənlərə də bir ismarıcdır ki, Azərbaycan-Türkiyə hərbi əməkdaşlıq və Şuşa bəyannaməsindən sonra da biz sırf praktiki şəkildə bu təlimləri keçiririk. Azərbaycanla Türkiyənin hərbi təlimləri və əməkdaşlığı birinci növbədə iki dövlətin maraqlarına xidmət edir. Digər göstərici də odur ki, Azərbaycanla Türkiyənin iş birliyi regionda sabilliyi qorumaq və hər hansı xarici müdaxiləyə qarşı durmağa xidmət edəcəkdir”.

***Ayşən Vəli***

# Efir məkanında təhlükəli problem



**Ailədaxili məsələlərin mətbuatda, televiziyada yayımlanması, ictimailəşdirilməsi son zamanlar geniş şəkildə yayılıb. Bu nə dərəcədə doğrudur?**

Mövzu ilə bağlı media eksperti Azər Həsrət bildirib ki, heç kimə televiziyaya çıxıb fikirlərini ictimaiyyələşdirməyə yasaq qoyula bilməz: "O cümlədən də ailə problemi olan adamın çıxıb ailə haqqında danışmasına da hüquqi əngəl yoxdur. Yəni, insandır. Ola bilər ki, bu və ya digər şəkildə ailəsi alınmayıb və problemlə üzləşib. Lakin, buna baxmayaraq o sahəni yaxşı bilir və yaxud da hər hansı formada bu məsələlər haqqında ekspert rəyi verə bilər. Yəni, hüquq və qanun bunu yasaqlamır".

Onun sözlərinə görə, lakin işin mənəvi tərəfi var: "Ümumiyyətlə, media inandırıcı olmalıdır. İstər televiziya, istər digər media olsun öz istifadəçisinə elə örnəklər təqdim etməlidir ki, həmin örnəklər cəmiyyətin müsbət yöndə dəyişməsinə töhvə verə bilsin. Bizdə onu müşahidə edirik ki, özünün ailə problemi olan insan, həqiqətən də bu və ya digər səbəblərdən dolayı uğursuz ailə örnəyi təşkil edən adamlar bəzən televiziyaya çıxıb uğurlu ailə modeli haqqında ağıl öyrədir. Əlbəttə ki, bu qanun tərəfindən yasaqlanmasa da, mənəvi-əxlaqi tərəfdən düzgün birşey deyil. Yəni, insan özü örnək təşkil edə bilməyibsə, özün öz təcrübəndə bunu tətbiq edib uğurlu nəticə almamısansa, hətta ağzından dür tökülsə belə cəmiyyət onu normal qarşılaya bilməyəcək. Sənin verəcəyin ağıl heç kimi düz yola çıxara bilməyəcək"".

Ekspert sözlərinə belə davam edib: "Ona görə də televiziya kanallarımız ailə məsələləri ilə bağlı ekspertlər dəvət edərkən, həmin ekspertin özünün ailə təcrübəsini nəzərdən keçirməlidirlər. Cəmiyyətdə sonsuz sayda uğurlu ailə modelləri var. Bu özəlliklə də ziyalı kəsimdə üstünlük təşkil edir. Yəni, xanımın da, bəyin də cəmiyyət içində yaxşı mənada tanındığı, qəbul edildiyi, örnək ailə modeli kimi olduğu sonsuz sayda ailələr var. Niyə bu cür məsələlərdə belə ailələr efirə dəvət olunmur? İş sahəsində də, ailə sahəsində də bu ailə uğurlu və örnəkdir və istərdik ki, cəmiyyətimiz bu cür ailələrə bənzəsin. Amma biz onu görürük ki, ümumiyyətlə ömründə normal ailəsi olmayan biri televiziyaya çıxarırlar və o, ailənin necə olması haqqında insanlara ağıl öyrədir. Təbiidir ki, bu da doğru birşey deyil. Yəni, media burada yalnış yanaşma sərgiləyir. Birinci günah belə adamları efiə çağıranda, ikinci günah isə ağıl öyrədənlərdədir".

Məsələ ilə bağlı "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev fikirlərini qeyd edib: "Azərbaycanın qatıldığı beynəlxalq konvensiyalara görə, tutduğu vəzifədən, etnik mənsubiyyətindən, gəlirindən, dərisindən asılı olmayaraq hər kəs qanun qarşısında bərabərdir. İkinci tərəfdən Azərbaycan Konstitusiyasında hər kəsin ifadə və söz azadlığı var. Buna görə də şəxsin ailə vəziyyətindən asılı olmayaraq hər hansı fikir yürütməkdə azaddır. Cəmiyyət həmin şəxsin dediyi fikirləri qəbul edə də, etməyə də bilər".

"Əlbəttə ki, kütləvi informormasiya vasitələri çox müxtəlif xarakterlərə və şəxsi məzmuna malik olan şəxslər tərəfindən müxtəlif fikirlər səsləndirilir. Ola bilər ki, bu fikirlərdə rasional və qeyri-rasional fikirlər olur. Ona görə biz seçim edəndə düzgün seçim etməliyik. İnsan ağıllı məxluqdur və onu digər canlılardan fərqləndirən ən əsas məqam də məhz budur".

*Ayşən Vəli*

# Musiqi ruhun qidasıdır

***Mahnı melodiyanın, ritmin, sözlərin kompozisiyasının bir vokalist tərəfindən ifa olunmasıdır. Mahnı latın dilindən gəlir, mənası kantio yəni "oxunan hər şey" deməkdir.***



Ümumiyyətlə, mahnılar bir və ya bir çox vokalçı tərəfindən səsləndirilə bilər. Mahnı musiqi əsəri sayılır. Çünki dinləyicilərinə ilham verir, müxtəlif hisslər oyadır, emosiya, eşq, dostluq, kədər, sevinc, vətənpərvərlik kimi duyğular yaradır. Belə bir deyim var ki, musiqi ruhun qidasıdır. Bəzən bir mahnı insanı mənəvi olaraq uzaqlara apara bilər.

Bu baxımdan mahnı səciyyəvi amillərinə görə müxtəlif növlərə malikdir. Mahnılar mözularına görədə fərqli qruplara bölünürlər: Lirik, xalq, polulyar mahnılar.

Lirik mahnılar klassik musiqinin bir hissəsidir. Adətən həzin, sakit, durğun səslənir və fortepiano, gitara, kamanca, simfonik orkestrlərin müşayəti ilə ifa edilir. Bu mahnılara insanlar sakitləşmək üçün də qulaq asır. Yazılan sözlər misra şəkildə həzin bir qafiyə təşkil edir.

**Akif İslamzadə - Saçlarına gül düzüm**
**Çingiz Mustafayev - Can can**
**Nəzakət Teymurova - Qal sənə qurban**
**Röya - Dolunay**
**Günay İbrahimli - O bəsimdir**
**Zamiq Hüseynov - Kaman**

Xalq mahnıları - müxtəlif sosial qrupların hekayələrini və ya adətlərini izah edən musiqi əsərləridir. Əsasən belə mahnılar müftəlif ənənələrlə ifadə olunur və ölkənin, bölgənin mədəniyyətinin bir hissəsidirlər. Xalq mahnıları ümumiyyətlə, ictimai məkanda anonim müəllifikdədir. Bu mahnılar əsasən dildən dilə, nəsildən-nəsildən ötürülür. Bu baxımdan xalq mahnıların tarixi çox qədim vaxtlara dayanmaqdadır.

**Xalq mahnılarına misal olaraq**

Qarabağ şikəstəsi, İrəvanda xal qalmadı, Dilbərim, Nəqşicahandır, Ceyran, Sudan gələn sürməli qız, Şuşanın Dağları, Sarı gəlin, Nazəndə sevgilim

Populyar mahnılar musiqi üslublarının müxtəlifliyini ortaya qoyan və ümumiyyətlə ən çox dinlənilən musiqilərdir. Dövrümüzlə ayaqlaşan,müasir növdür. Populyar mahnılar sözləri müəllif tərəfindən yazılır və sözlərə musiqi bəstələnir,ifaçı tərəfindən ifa olunur. Bu növ mahnıların yaranması bir qədər əziyyət tələb edir. Populyar mahnılar lirikvə xalq mahnılarından fərqli olaraq dəyişə bilən və mürəkkəb, lakin daha fərqli musiqi quruluşuna malikdir.Papulyar mahnıların musiqi janrları arasında pop,rok,rok-soll, salsa, merengue, ballada, rep, caz, ağır metal və növləri vardır.

**Edis - Martılar**
**Miri Yusif - İki sətir**
**Röya və Miri Yusif - Bir dənədir**
**Sezen Aksu - Manifesto**
**Əhməd Mustafayev Ü Canan**

*Qönçə Quliyeva*

# Rusiyalı deputat: "Zelenskidən bu cür sözləri eşitmək kədərlidir"



Rusiya Federasiyası Dövlət Dumasının Krım bölgəsindən olan deputatı Mixail Şeremet Ukrayna Prezidenti Vladimir Zelenskinin, Uruslar və ukraynalılar bir xalq deyil və hər kəsin öz yolu var" sözlərini kədərli adlandırıb. SİA xəbər verir ki, deputat Mixail Şeremet bunu RİA Novostiyə müsahibəsində bəyan edib. Qeyd edək ki, bir qədər əvvəl Zelenski Twitter-də Ukraynalılar və rusların bir xalq olmadığını, hər birinin öz yolu olduğunu, ancaq məqsədin eyni, müharibəni bitirmək, əraziləri geri qaytarmaq olmalı olduğunu yazmışdı.

"Zelenskidən bu cür sözləri eşitmək kədərlidir. Ukraynanın, rəhbərlərinin səssiz razılığı ilə Qərbin Rusiyaya hakim olması üçün təcrübələrin tramplininə çevrilməsi kədərlidir", deyə Şeremet bildirib. Onun sözlərinə görə, Zelenski müdrik bir siyasətçi olsaydı, "ölkəsini qərb kuratorları tərəfindən qəsdən əsarət altına alma kursundan" imtina edərdi.

"Ukrayna bir dövlət olaraq yalnız Rusiya ilə çiyinçiyinə addımladığı zaman inkişaf etdi və hesablaşıldı. Yalnız birlikdə və bərabər hər cür çətinliyi və təhdidləri aşdıq. Buna görə Zelenskinin danışdığı digər yol böyük bir bədbəxtlik və səhvdir, hansı ki, ukraynalıların sonrakı nəsilləri buna görə ödəməli olacaqlar. Qərb heç vaxt Ukraynanı bərabər hüquqlu hesab etməyəcək. Qullar kimi əbədi mövcud olacaqlarından həqiqətən razıdırlarmı?", deyə Şeremet sual edib.

*İnam Hacıyev*

# Toylarda sıxlığa necə nəzarət olunacaq?



Artıq ölkə ərazisində toy, nişan, ad günlərinin keçirilməsinə icazə verilib. Mərasimlərdə pandemiya qaydalarına əməl olunmasına nəzarət məqsədilə ictimai iaşə obyektlərində monitorinqlərə başlanılıb. Bu barədə AQTA-nın şöbə müdiri Mansur Piriyev məlumat verib.

Onun sözlərinə görə, artıq 5 gün əvvəldən şənlik mərasimlərinin keçirilməsi ilə bağlı portala müraciətlər daxil edilib:

"Aidiyyatı qurumlar həmin portala birbaşa inteqrasiya olunaraq məlumatları görürlər. Bizim müfəttişlərimiz tərəfindən monitorinq aparılan zaman xüsusən sıxlıq normalarına riayət olunması, eyni zamanda COVİD-19 pandemiyası ilə əlaqədar ictimai iaşə müəssisələrində profilaktiki işlərlə bağlı metodiki göstərişlərin tələblərinə əməl edilməsi yerində yoxlanılır. Şənlik keçirilən ictimai iaşə obyektlərinin rəhbərləri portala müraciət edərkən, ilk növbədə qonaq sayını zalların sahəsi ilə bağlı məhdudiyyəti nəzərə alaraq təqdim etməlidirlər".

Qeyd edək ki, "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" Nazirlər Kabinetinin qərarında edilən dəyişikliyə görə, iyulun 1-dən ölkə ərazisində 150 nəfərə qədər iştirakçısı olan şənlik mərasimlərinin keçirilməsinə icazə verilib.

## "Bu isti havalarda heç kim onların aksiyalarına qoşulmayacaq"



"Aksiyalar keçirmək müxalifətin həmişəki peşəsidir. Azərbaycan Respublikasının Konstitusiyasına görə, insanlar mitinqlər, küçə yürüşləri keçirə bilərlər. Yəni, aksiyaları keçirmək hər kəsin haqqıdır, o cümlədən də müxalifətin". Bunua SiA-ya açıqlamasında Təkamül partiyasının sədri Teyyub Qənioğlu deyib. T.Qənioğlu bildirib ki, aksiyaların keçirilməsi üçün arqument olmalıdır və nə vaxt, nə nəyə görə keçirildiyi əsaslandırılmalıdır: "AXCP-də, Müsavatda, "Milli Şura"da təmsil olunan şəxslər ilin 11 ay 29 gününü aksiyalar keçirmək istəyindədirlər. Nə olur-olsun aksiyalar keçirib bir müddət gündəmdə qalmağa ümid bəsləyirlər".

O qeyd edib ki, müxalifətin bu dəfə aksiyalar keçirmək istəyi qazın və işığın qiymətinin qalxması ilə bağlıdır: "Uİstəyirlər ki, yeni hay-küy qaldırsınlar. Yəni qiymət artımı heç kəsin xoşuna gəlmir, amma müxalifətin budan şou yaratmağa çalışması düzgün deyil. Ümumiyyətlə, hər zaman adları çəkilən qüvvələr nə isə olan kimi bunu şişirdib, öz siyasi məqsədləri üçün istifadə etməyə çalışıyrlar. Amma əminəm ki, bu isti havalarda heç kəs çölə çıxaraq onların aksiyalarına qoşulmayacaq".

*Gülyana*

*Azərbaycanın bir çox region və ərazilərində yüksək səviyyəli, müasir tələblərə cavab verən otellər inşa edilərək istifadəyə verilib. Dünyada tanınmış və inkişaf etmiş böyük otel şəbəkələri artıq ölkəmizdə fəaliyyət göstərir və onların sayı durmadan artır. Müasir günümüzdə demək olar ki, ölkənin hər bölgəsində turistləri qarşılayacaq otellər vardır ki, bu da uğurlarımız sırasındadır. Vurğulamaq yerinə düşər ki, turizm sahəsi xidmət sektoru olmaqla bərabər, həm də iqtisadiyyatın əsas maliyyə mənbəyi kimi çıxış edir. Bu gün paytaxtımızda mövcud olan otellər sırasına daha biri də əlvə olundu. Bu "Courtyard by Marriott Baku" otelidir.*

# Paytaxtımızda otelçilik biznesi keyfiyyətcə yeni mərhələdə











Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə otelin açılışı olub. Əlbəttə ki, ölkəmizdə müasir tələblərə cavab verən otellərin inşası Azərbaycanın iqtisadi gücünün təcəssümüdür. Yaxın günlərdə paytaxtımızda daha bir beşulduzlu otel "Intercontinental" oteli istifadəyə verildi. Bir neçə gün sonra "Courtyard by Marriott Baku" otelinin istifadəyə verilməsi dünyada pandemiyanın davam etməsinə, iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, ölkəmizdə sosial-iqtisadi infrastruktur layihələrin icrasının davamlı olduğunu bir daha təsdiqləmiş oldu.

### PAYTAXTIMIZDA DÜNYA BRENDLƏRİNƏ MƏXSUS OTELLƏR İSTİFADƏYƏ VERİLİR

Yeni açılışı olan "Courtyard by Marriott Baku" otelində 365 otaq, iclas, idman zalları, restoran yaradılaraq istifadəyə verilib ki, bu da ölkəmizdə qeyri-neft sektorunun inkişafında rol oynamaqla yanaşı, Bakının sosial-iqtisadi inkişafında əhəmiyyətə malikdir. Bu kimi yeni otellərin açılışı otelçilik biznesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasından xəbər vermiş olur. Bu otel kompleksi Avropada və dünyada xüsusi imicə malik otellər şəbəkəsi tərəfindən inşa edilib. Son illər Azərbaycanda dünya brendlərinə məxsus bu cür otellərin istifadəyə verilməsi ölkəmizdə əlverişli investisiya mühitinin olduğunu, bölgənin iqtisadi mərkəzi sayılan Azərbaycanın turizm sahəsində də qabaqcıl sıralarda yer aldığını ehtiva edir.

Qeyd edək ki, dünyada maliyyə və iqtisadi çətinliklərin olduğu, pandemiyanın ciddi fəsadlar yaratdığı bir dövrdə Prezident İlham Əliyevin gələcəyə baxış konsepsiyası sayəsində ölkəmizdə heç bir sosial-iqtisadi layihə təxirə salınmadı. "Courtyard by Marriott Baku" oteli şəhərimizin görkəminə yeni bir rəng də əlavə edib. Bu otelin istifadəyə verilməsi Azərbaycan turizm sektoruna ayırdığı diqqətin nümunəsidir. Əlbəttə ki, otelçiliyin inkişafını şərtləndirən amillər sırasında bu ilk növbədə ölkəmizdə iqtisadi inkişafın göstəricisidir Azərbaycanın, paytaxtımızın təbliği baxımından da əhəmiyyət kəsb edir. Ölkəmizin mətbəxi, adət-ənənələri baxımından da təqdirəlayiqdir.

Azərbaycanda otellərin sayının sürətlə artımı şəhərin qonaq qəbuletmə imkanlarını da genişləndirib. Bakı Bulvarında yerləşən beş ulduzlu "Hilton" oteli 309 otaqdan və 618 yerdən ibarətdir. Paytaxtın Badamdar qəsəbəsində yerləşən beş ulduzlu "Kempinski Badamdar" 280 otaq və 727 yerdən ibarətdir ki, bu da şəhərimizin ən aparıcı otelləri sırasında ön yerlərdən birini tutur. Beş ulduzlu "JW Marriott Absheron Baku Hotel"i qeyri-adi dizaynı və dəbdəbəsi ilə hər kəsi heyrətləndirir. Beş ulduzlu "Sheraton Baku Airport Hotel"i Bakıda Heydər Əliyev adına Hava Limanındadır. Nəhəngliyini hətta hava limanının fonunda qoruyub saxlayan "Sheraton Baku Airport Hotel" təyyarədən yenicə düşən və ya uçmağa hazırlaşan qonaqlar üçün ən münasib bir məkandır. Beş ulduzlu otellərdən olan "Park Hyatt Baku", "Jumeirah Bilgah Beach Hotel", "Hyatt Regency Baku" və digərləri hazırda Bakıda dünyanın bütün əsas otel şəbəkələrinin fəaliyyət göstərdiyini təsdiqləyir. Hər bir otel özünəməxsusluğu ilə seçildiyindən "Park Inn Baku" otelinin də xüsusi yeri var. Paytaxtın əsas otel sırasında olan "Park Inn Baku" 4 ulduzlu olsa da, rəqiblərindən geri qalmır. 4 ulduzlu otellər sırasında "Crescent Beach Hotel"in adı da var ki, bu otel 241 otaqdan və 261 yerdən ibarətdir.



### REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI LAYİHƏLƏRİ ƏSASINDA İSTİFADƏYƏ VERİLƏN OTELLƏR MÜASİRLİYİ İLƏ SEÇİLİR

Paytaxtdan əlavə, bölgələrdə tikilən otellər də öz müasirliyi, gözəlliyi ilə seçilir. Belə ki, Azərbaycanın turizm mərkəzinə çevrilən Qəbələ şəhərində bir neçə beşulduzlu otel fəaliyyət göstərir. Təsüdüfi deyil ki, Qəbələ həm yaz-yay, həm də qışturizmi üçün ideal bölgə hesab edilir. "Qafqaz Tufandag Mountain Resort Hotel", "Qafqaz Sport Hotel", "Qafqaz Karvansaray Hotel", "Qafqaz Gabala City Hotel" və s. öz müasirliyi, dizayni, rahatlığı baxımından diqqətəlayiqdir. Regionların sosial-iqtisadi inkişafı layihələri çərçivəsində istifadəyə verilən turizm obyektləri sırasında Gəncədə "VEGO" , Naftalanda "Chinar Hotel & SPA Naftalan", "Naftalan Hotel by Rixos", "Qarabağ SPA and Resort", Qusarda "Şahdağ", "Pik Palas", Qaxda "El Resort", Tovuzda "Ayan Palace" otellərini, Şəmkirdə "Excelsior Hotel Shamkir", Şəkidə "Green Hill İnn" mehmanxanalarını və Şəkidə "Shaki Palace" otelini qeyd etmək olar ki, onların da hər biri müasirliyi ilə diqqət çəkir. Təbii ki, Azərbaycanda olan otellər qeyri-neft sektorunun, eləcə də turizmin inkişafına töhfə verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Şəhid ailələrinə və qazilərə yüksək dövlət qayğısı davamlı xarakter daşıyır



*Həmid Pənahov, YAP Qazax rayon təşkilatının sədri*

Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranlarının və əlillərinin sosial müdafiəsidir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında, müsahibələrində, görüşlərində dəfələrlə qeyd edib ki, bu sahədəki siyasətim birmənalıdır. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib.

Çünki Azərbaycan dövlətinin apardığı siyasətin əsas məqsədi ölkənin iqtisadi cəhətdən daha da inkişaf etməsidir. Təsadüfi deyil ki, hər il ölkənin büdcəsi təsdiq olunarkən əhalinin sosial rifahının artırılması diqqət mərkəzində olur. Büdcədən sosial sahəyə ayrılan vəsaitin həcmi ildən-ilə artır. İstər pandemiya şəraiti səbəbindən, istərsə də İkinci Vətən Müharibəsi dövründən dövlətin gəlirləri müəyyən qədər azalsa belə, cari ildə də sosial sahəyə ayrılan vəsaitin həcmi çoxalıb. Həyata keçirilən sosial siyasət həm də geniş əhatəli olmaqla, ölkənin sosial dəstəyə ehtiyacı olanların hamısının mənafeyi nəzərə alınıb. Azərbaycanda tələbələrdən tutmuş İkinci Dünya müharibəsinin veteranlarına kimi hamıya sosial qayğı göstərilir.

Xüsusilə, Prezident İlham Əliyevin şəhid ailələri və qazilərlə bağlı cari ilin yanvar ayının 25-də imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı, iyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının sosial müdafiəsini gücləndirilmək məqsədilə həmin hərbçilərin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları, Xüsusi Təyinatlı Qüvvələrdə və əməliyyat briqadalarında xidmət edən hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə maaşlarının artırılması ilə bağlı Sərəncamı, bir sözlə reallığın göstəricisidir. Bu Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir.



Qeyd edək ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Belə ki, Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir. Həmçinin, əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən əlillərin sosial müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət Proqramının maliyyələşdirilməsi təmin olunub.

"Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları bu kateqoriyadan olan insanların rifah halını yaxşılaşdırmaq və onlara göstərilən dövlətin davamlı qayğısının bariz nümunəsidir. Bütün deyilənlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası banklar tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış şəhidlərdən banklar qarşısında kredit öhdəliyi olan 830 şəhidə aid 1 503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsini təmin ediblər. Eyni zamanda, şəhidlərimizin ailə üzvlərinə aid olan 286 sayda, xəsarət almış hərbçilər üzrə 1 323 sayda kreditin, şəhid olmuş 15 nəfər və ciddi zərər çəkmiş 9 nəfər mülki şəxsin borc öhdəliklərinin tamamilə silinməsi təmin olunub. Həmçinin, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanuna əsasən, dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda ödənişli formada təhsil alan şəhid ailələrinin üzvləri təhsil haqqı ödəməkdən azad olunmasıdır. Bütün bunlarla yanaşı, qeyd edilməli məqamlardan biri Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli Sərəncamıdır. Sərəncama uyğun olaraq 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. O cümlədən bu il ərzində 3 minədək mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim ediləcək. Onlardan artıq 470-i verilib. Ümumilikdə indiyədək şəhid ailələrinə, müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 9670 mənzil və fərdi ev verilib.

Bütün bunlar, bir daha təsdiq edir ki, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən əlilliyi olanların, şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının, mina qurbanlarının sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövlətinin sosial siyasətinin əsas tərkib hissələrindəndir.

Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib".

# "Xam xəyallardan əl çəksinlər, ağıllı olsunlar"

Cənab Prezidentimiz hələ müharibədən əvvəlki dövrdə, danışıqlar aparılan dövrdə də ATƏT-in Minsk Qrupuna da, beynəlxalq qurumlara da, Ermənistanın rəhbərlərinin özlərinə də dəfələrlə çağırışlar edirdi ki, siz normal yaşamaq istəyirsinizsə, sizin yeganə bir yolunuz var, bu yol da qonşularla mehriban əməkdaşlıqdan, sülhdən keçir, başqa yol yoxdur. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib.

Millət vəkilinin sözlərinə görə, müharibə bunu bir daha sübut elədi və Ermənistanın tək ordusu yox, iqtisadiyyatı da, siyasəti də, diplomatiyası da, bütün sahələri də məhv oldu, ümumilikdə Ermənistan məhv oldu, iflasa uğradı.

"Ermənistan dalana dirənmiş, blokada şəraitində olan bir anklavdır və buna dövlət də demək olmaz. Cənab Prezidentimiz bir neçə dəfə bu fikri səsləndirib ki, onlar, ermənilər 30 il ərzində müstəqil dövlət də, dövlətçilik də qura bilmədilər. Onlar bu xam xəyallardan əl çəksinlər, ağıllı olsunlar. Normal yaşamaq istəyirlərsə, əməkdaşlığa gəlməlidirlər.

Bəli, müharibədən sonrakı dövrdə də, xüsusilə Silahlı Qüvvələrimiz günü hərbçilərimizlə, bir qrup hərbçilərimizlə görüşdə də cənab Prezidentimiz çox müdrik, çox cəsarətli, çox sərt bəyanatlar verdi. Yəni, başa saldı ki, Azərbaycanın bu gün onlarla nə qonşuluq etməyə, nə də heç bir şeyə ehtiyacı yoxdur, Azərbaycan inkişafda olan, inkişaf edən güclü bir dövlətdir, güclü iqtisadiyyata, şaxələnmiş iqtisadiyyata malik, Şimal-Cənub,



Şərq-Qərb nəqliyyat dəhlizlərinə malik, Avropanın enerji təhlükəsizliyinə töhfə verən bir dövlətdir. Azərbaycanın nə qədər beynəlxalq layihələri var ki, bunlar hamısı Azərbaycanın rəhbərliyi ilə, təşəbbüsü ilə həyata keçirilib və keçirilməkdədir. Əgər onlar da düşdükləri bu fəlakətli vəziyyətdən çıxmaq istəyirlərsə, onlar qonşularına qarşı olan bu düşmənçilik, ərazi iddialarından, işğalçılıq iddialarından, xəyallarından əl çəkməlidirlər.

Yəni, bu 30 il göstərdi ki, onlar bununla özlərini həddən artıq acınacalı bir duruma salıblar. Heç olmasa bir götür-qoy eləsinlər, nəticə çıxarsınlar. Axı onların hamısı axmaq deyil, içərilərində bir sağlam düşüncəyə malik olan insanlar da var və bələlərinin sözünə baxsınlar. Türkiyəyə, Azərbaycana qarşı olan bu düşmən mövqelərindən, bu qisasçılıq mövqelərindən, bu ərazi iddialarından əl çəksinlər ki, əməkdaşlığa gedilsin, həmrəylik olsun, dayanıqlı sülh olsun bölgədə və onlar bu halda normal yaşaya bilərlər. Əks halda Ermənistandan köçmələri bu gün də qabağını alıb saxlamaq olmayacaq, Ermənistan ermənisiz qalacaq. Elə əslində bu cür də olmalıdır. Çünki Ermənistan deyilən dövlətin yerləşdiyi ərazi bizim tarixi torpaqlarımızdır və dönüb biz özümüz oralarda məskunlaşacağıq son nəticədə.

Mənə belə gəlir ki, sərsəm bəyanatlardan əl çəkməlidirlər və cənab Ərdoğan da, cənab Prezidentimiz İlham Əliyev də, hətta cənab Vladimir Putin də belə bir fikir səsləndirdi ki, hər iki dövlət çalışmalıdır ki, qarşılıqlı sülh olsun. Bəli, hamı sülh istəyir. Heç kim müharibə istəmir. Müharibə istəsələr 44 günlük müharibə bu dəfəkinin yanında "muştuluq" olacaq. Bax belə olan təqdirdə, artıq İrəvanın mərkəzində Azərbaycan bayrağı dalğalanacaq, himni səsləndiriləcək", deyə Elman Məmmədov bildirib.

**İnam Hacıyev**

# XƏBƏRDARLIQ: Sən demə bu qidalar cinsi istəyi azaldırmış!



"Bir çox fərqli səbəbdən yarana bilən cinsi istəksizlik, ən az 6 ay cinsi düşüncələrin olmaması kimi təyin edilə bilər. Cinsi əlaqə istəklərinin azalması, cinsi istəklərin olmaması, cinsi fəaliyyətin azalması və ya olmaması kimi bütün hallar cinsi istəksizlik başlığı altında araşdırılır. Cinsi pozğunluqlardan biri olan cinsi istəksizlik həm qadınlarda, həm də kişilərdə görülə bilər. Kişilərə nisbətən qadınlarda daha çox görülən bu vəziyyətin ən ümumi səbəbi stresdir. Həkimlərin tez-tez rastlaşdığı "Qadınlarda cinsi istəksizliyi necə aradan qaldırmaq olar?" sualına cavab vermədən əvvəl, cinsi istəksizliyin kişilərdə və qadınlarda necə və niyə meydana gəldiyini anlamaq lazımdır. Bir də cinsi istəyi artıran və azaldan bəzi qidalar var. Məsələ ilə bağlı qida texnoloqu Ağa Salamov SİA-ya açıqlama verib.

Onun sözlərinə görə, boş karbohidratlar, ölkəyə idxal olunan "fast food"lar, "burger"lər, çörəklər və s. insanların cinsi həyatına mənfi təsir edə bilər: "Lakin məsələ ilə bağlı uroloqlar daha məlumatlıdır və daha dolğun cavab verə bilərlər. Ümumilikdə isə insana heç bir dəyəri ötürə bilməyən qidalar cinsi istəyi azaldır".

**Ayşən Vəli**

# "İrəvan və Ankaranın qardaş şəhərlər olma ehtimalı azdır..."

*"Bu gün Türkiyə ilə münasibətlərdən danışmaq minalı sahədən keçmək kimidir, yəni bir az sola və yaxud bir az sağa, sonda havaya sovrulacaqsınız". Bunlar "erməni təxəyyülü"ndən tökülən fikirlərdir. Bəli, bu günə qədər də öz milli varlığı ilə bağlı birbaşa türklərə borclu olmalı olan xəbis erməni fikirləri...*



Qeyd edim ki, son günlər Ermənistanda ermənilərin türklərlə yeni qurulacağı ehtimal olunan əlaqələrə ermənilərin münasibəti fərqlidir. Əslində, burada fərqli sözü elə də yerin düşmür. Cünki əksər ermənilər bu münasibətlərin elə də perspektivli ola biləcəyinə inanmırlar.

Qeyd edim ki, bu inamsızlıq dar çərçivədə, yəni elə də geniş olmayan erməni əhli arasında aparılan rəy sorğusundan sonra bir daha məlum olub. Amma burada maraqlı bir nüans da nəzərdən qaçmamalıdır. Belə ki, rəyi soruşulan bəzi ermənilər türkləri Ermənistandakı siyasi dəyişikliklərin hərəkətverici qüvvəsi olaraq qəbul etdiklərini gizlətməyiblər. Amma dediyim kimi, bunlar ermənilər arasında azlıq təşkil edənlərdir. Ümumulikdə isə qoyulan sual belə olub: sizin Türkiyə və türklərə manasibətiniz necədir?

Məsələn, erməni gənclərindən biri Türkiyəyə qonşu bir dövlət, türklərə isə qonşu bir dövlətdə yaşayan vətəndaş kimi baxdığını bildirib.

Təbii ki, şəxsən mənə həmin ermənin onda türklərə qarşı öldürmək, yandırmaq, təcavüz etmək istəyinin olmadığını söyləməsi elə də inandırıcı görünmür. Maraqlı görünən isə onun Tanrının verdiyinə qane olduğunu, yəni Ermənistanın İsveçrə ilə qonşu olmamasında günahkar olmadığını deməsidir. Ermənin dediyindən belə başa düşülür ki, guya Tanrının verdiyi onları qane edir. Burada da, Sizi deyə bilmərəm, amma mən bu ermənin "səmimiyyətinə" inanmıram. Əvvəla qeyd edim ki, İsveçrənin ən böyük xoşbəxtliklərindən biri, bu ölkənin Ermənistanla qonşu olmamasıdır. Çünki, "harada çörək boldursa, oranı özlərinə vətən hesab edən ermənilər" çoxdan İsveçrənin əzəli erməni torpağı olduğunu iddia edib, yalançı hay-həşirlə bu ölkədən də ərazi umardılar.

...Yeri gəlmişkən bildirək ki, sorğu Türkiyənin erməniər üçün fərqli önəmlər kəsb etdiyini də ortaya qoyub. Bunu onların dedikləri də təsdiq edir. Məsələn, bu gün ermənilərin bir qismi üçün Türkiyə "əbədi olaraq lənətlənmiş şər bir ərazi", bəziləri üçünsə dəri məmulatları və qalereya maşınlarının geniş çeşidi ilə gözoxşayan yaxşı bir kurortdur.

Məsələ bundadır ki, bu gün hamısı da olmasa, amma bəzi ermənilər qonşu dövlətlə münasibətlərin yaxşılaşacağına ümid edib və keçmişi unutmadan gələcək haqqında düşünməyə çağırırlar. Digərləri, onsuz da çox sayda olan qarşılıqlı şikayətləri daha da çoxaldaraq, radikal hisslərlə yanaşı oynayırlar, amma bundan sonra nə edəcəklərini hələ də bilmirlər.

Amma dediyim kimi, ermənlər arasında mütəlif mövqe nümayiş etdirənlər də az deyil. Məsələn, bəzi erməni mütəxəssislər Ermənistanın Türkiyə ilə sərhədinin açılacağı təqdirdə Rusiyanın erməni iqtisadiyyatına dəstək xərclərini azaldacağını iddia edirlər.

Etiraf edilməlidir ki, bu gün erməniləri maraqlandıran, onların dediyi kimi, elə də böyük bir siyasəti olmayan, sadəcə olaraq, küçədən gələn bir adamın, yəni Nikol Paşinyanın bundan sonrakı davranışları olacaq. Reallıq isə budur,.. bəli, İrəvan və Ankaranın qardaş şəhərlər olma ehtimalı azdır, lakin həmişəlik müharibə edən iki dövlətin paytaxtları olaraq qalmaq da vacib deyil.

...Mənafelərin düzgün balansını qurmaq üçün müdrik və təcrübəli bir siyasətçiyə ehtiyac duyan ermənilər nədənsə, Nikol Paşinyanı bu məziyyətlərdən məhrum biri kimi görürlər.

***Ağasəf Babayev***



## "Ermənistan bütün məsələlərdən imtina edir"

"Ermənistanda ordunun ləğv edilməsi və qarşılığında hərbi polisin yaradılması çox gözlənilməz və izahı çətin olan prosesdir. Buna islahatda demək olmaz. Hətta inkişaf etmiş Avropa ölkələrində belə kiçik saylı olsa müdafiə nazirliyi sistemi və yaxud ordunun mövcudluğu var". Bunu SIA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Onun sözlərinə görə, Ermənistanda ordu ləğv edilib, əvəzində hərbi polis yaradılacaqsa bu çox riskli addımdır: "Hələ ki bütövlükdə biz bunun digər nüanslarını bilmirik. Görünür Ermənistan ordunun bütün funksiyalarını Ermənistanda yerləşdirilmiş Rusiyanın müdafiə qurumlarına vermək istəyir. Yəni Ermənistan müdafiə nazirliyinin səlahiyyətləri ilə Rusiyanın oradakı hərbi bazarları məşğul olur, daxili asayişi isə gücləndirilmiş polis rejimi vasitəsi ilə təmin edilir. Hər halda bunun digər nüanslarını da öyrənmək lazımdır. Çünki 44 günlük müharibə ərzində imicini itirmiş erməni ordusunun məhz bu səbəbə görə ləğv edilməsini çətin anlayıram və səbəb məhz bu deyil".

Politoloq bildirdi ki, bunun arxasında Rusiya ilə Ermənistan arasında hansısa hərbi-siyasi anlaşmanın dayandığını istisna etmirəm: "Belə görünür ki, kiçik bir ölkə olan Ermənistan Rusiyanın bir quberniyasına çevrilir və özünə, suverenliyinə aid olan bütün əsas məsələlərdən imtina edir. Bir sözlə, Rusiya Cənubi Qafqazda mövqeyini daha da möhkəmləndirmək üçün Ermənistanda reforma adı altında ordunu bir növ özünə tabe etdirir. Demək olar ki, Ermənistanda ordu tam ləğv edilməyəcək, sadəcə olaraq ordunun generalları, zabit heyəti Rusiya ordusuna cəlb ediləcək. Ola bilsin ki, gələcəkdə çağırış sistemində, gənc çağırışçıları da Rusiyanın bu bölgədə təşkil etdiyi qüvvələrin tərkibində müdafiə nazirliyini funksiyalarını yerinə yetirsin. Ermənistanda tamamilə müdafiə nazirliyinin ləğv ediləcəyini və sıradan çıxarılacağını güman etmirəm. Çünki burada nə isə bir oyun var və səbirli olub axıra qədər bu oyunun sonuncu nəticələrini izləmək lazımdır".

***Gülyana***



Biz müxtəlif erməni siyasətbazlarının, bir sıra müxalifətli, iqtidarlı siyasətçilərin yenə də Qarabağda və Ermənistanda yaşayan erməniləri aldatdıqlarının şahidiyik. Bu sözləri SIA-ya verdiyi açıqlamasında "Bakı" Politoloqlar Klubunun sədri, politoloq Zaur Məmmədov deyib.

## "Erməni təbliğat maşını adekvat qarşılanmır"

Klub sədrinin sözlərinə görə, elə bu günlərdə Araik Arutyunyanın da Qarabağın tanınmasının vacibliyi ilə bağlı çıxışı da onu göstərir ki, bu şəxslər abır və həyanı itirərək, reallıqdan uzaq çıxışlar edərək, təbii ki, öz şəxsi kreslolarını, hakimiyyətlərini qorumaq üçün ən çirkin oyunlara belə hazırdırlar.

"Bu günlərdə "Open Armenia" təşkilatının Dağlıq Qarabağdakı rus sülhməramlılarının məsuliyyəti, nəzarəti altında olan ərazilərdə apardığı sorğu da onu göstərmiş oldu ki, artıq oradakı, Xankəndidəki və qonşu rayonlardakı ermənilər Araik Arutyunyan, Robert Koçaryan və digərləri kimi siyasətbazların çıxışlarına inanmır və rəyi soruşulanların yarısından çoxu bölgəni tərk etmək niyyətində olduqlarını qeyd etmişlər və biz də çox gözəl bilirik ki, pandemiya bitər-bitməz onların çox hissəsi Rusiyaya, Qazaxıstana, Gürcüstana, Ukraynaya, ABŞ-a və digər ölkələrə köçməyi planlaşdırırlar.

Eyni zamanda, təsadüfi deyil ki, rəyi soruşulanların yarısından çoxu Qarabağın gələcəyini heç də, belə deyək, araik arutyunyanların və robert koçaryanların dedikləri ilə düz gəlmədiyini, Qarabağın gələcəyini məhz elə Azərbaycanın tərkibində gördüklərini açıqlayıblar. Bu, artıq o deməkdir ki, erməni təbliğat maşını Ermənistanın daxilində, hətta erməni diasporunun, erməni icmasının, erməni qruplarının çoxluq təşkil etdiyi bölgələrdə belə adekvat qarşılanmır. Hər kəs bilir ki, Azərbaycanın dedikləri bir-bir yerinə yetiriləcək və Paşinyan hakimiyyəti indiki halda, ilk növbədə, sərhədlərin delimitasiyası və demarkasiyası ilə məşğul olmalıdır və gələcək illərdə isə sülh müqaviləsi imzalanması əsas hədəf kimi olmalıdır. Əgər Ermənistan hakimiyyəti bütün bunları etməzsə, o zaman Ermənistan dövlətçiliyi ciddi şəkildə sual altında qalacaqdır və ətrafında olan 150 milyonluq türkün təbii ki, daxilində demək olar ki, yerləşən ermənilər ya bizim dedyimizi edəcəklər, ya da öz dövlətçiliklərini itirmək qarşısında qalacaqlar", deyə politoloq Zaur Məmmədov bildirib.

***İnam Hacıyev***



## ŞOK: ""Mən intihar edirəm" videosu çəkib sonra canlarına qəsd edirdilər!

"Ümumiyyətlə, son zamanlar intiharlarla bağlı müzakirələr, müsahibələr və video görüntülər üstünlük təşkil edir. Sanki, intihar bu gün əsrin bəlasıdır. Daxili və xarici aqressiyadan əziyyət çəkən insanların sonu intihardır". Bu sözləri SIA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib.

Onun sözlərinə görə, intiharların yaşı da fərqli mövqedədir: "Əvvəllər daha çox orta yaşlı və yaxud yeniyetmələr intihar edirdilərsə, bu gün ahıl yaşlı insanlarda bu hallar özünü göstərir. Bu da ailə, məişət, şəxsin özünün özü ilə olan prolemləri, şəxsiyyətin formalaşmasında qarşılaşdığımız problemlərdən irəli gəlir. Həmçinin, psixoloji cəhətdən həssas və zəif insanlar sosial şəbəkədə, eləcə də real cəmiyyətdə gedən müzakirələri, intiharlarını gördükdə çıxış yolu kimi bunu görməyə başlayırlar".

Psixoloq sözlərinə belə davam edib: "Yəni, bunlar virus şəklində yayılır. Bildiyimiz kimi, informasiya və sosial şəbəkə dövrüdür. Böyükdən-kiçiyə hər kəsin sosial şəbəkə hesabı var. Artıq sosial şəbəkələr həyatımızın bir hissəsidir. Nəticədə, intiharlar özünü qabarıq şəkildə göstərir. Bu da sosial şəbəkədən qaynaqlanır. Xatırlayırsınızsa bir ara sanki dəb halını alırmışcasına öncədən "mən intihar edirəm" videosu çəkib sonra canlarına qəsd edirdilər. İndi isə hündür mərtəbədən özünü atmaq tendensiya olub. Cəmiyyət maariflənməlidir. Sözlərimizə və ətrafımızdakı insanlara diqqət etməliyik. Empatiya bacarığımızı yüksək tutmalı və insanları dinləməyi öyrənməliyik. Çünki, insanlar dinlənilmədiyi üçün intihar yolunu seçir".

Məsələ ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu da münasibət bildirib: "Konkret olaraq onu deyə bilərəm ki, hər bir insanın istənilən davranışında, o cümlədən də intiharda 4 mühüm amil rol oynayır. Bunlardan birincisi insanın öz şəxsi, psixoloji, mənəvi keyfiyyətləridir. İkincisi mühit və mühitdə baş verən proseslərdir. Üçüncüsü insanın aldığı informasiyalar, dördüncüsü isə üstünlük verdiyi dəyərlərdir. Əgər intiharın qarşısını almaq istəyiriksə, bu istiqamətdə informasiya vasitələrinə ciddi diqqət etməliyik. Bu cür məlumatların geniş yayılmasının qarşısı alınmalıdır".

Əhməd Qəşəmoğlu sözlərinə belə davam edib: "Mənəvi dəyərlər insanı həmişə intihardan qoruyur. Bu dəyər zəiflədikdə isə, insanın intihara meyli çoxalır. İntihara ən çox təsir edən iki mühüm faktor var: insanın sabaha inamı və insanın bu günkü cəmiyyətdə özünü təsdiq etməsi. Yəni, insan bilsə ki, 1 həftə sonra onu işıqlı dünya gözləyir, onda intihar fikrindən daşınır. Təsdiq məsələsinə gəldikdə isə, bütün bu səbəblərdən gənclərin təhsilinə, işlə təmin olunmasına və hər hansı bir ciddi işlə məşğul olması məsələsinə diqqət vermək lazımdır. Bu cür insanları intihara meyllləndirən videoları yayanlara qarşı məhdudiyyət qoymaq lazımdır. Həmçinin, belə adamlar ictimai qınağa tutulmalıdır".

***Ayşən Vəli***

# Qurban bayramında əsas diqqət yetirilməli məqamlar hansılardır?

***"Qurban sözünün mənası - Allaha yaxınlıq deməkdir. İnsan elə bir iş görür ki, öz hərəkəti ilə, əməli ilə, Allaha yaxınlaşır". Bu sözləri SIA-ya açıqlamasında Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev deyib.***



Onun sözlərinə görə, Qurban bayramının tarixi çox qədimdir: "Qurban İbrahim Peyğəmbərin zamanından gəlir. Müqəddəs Quran kitabında da göstərilir ki, Allah-Təala İbrahim Peyğəmbərə əmr etdi. Bunun da öz fəlsəfəsi var. Yəni bu Peyğəmbərlə Allah arasındakı dostluğun imtahanı idi ki, Allah ona əmr etdi ki, əgər, sən həqiqi layiqli dostsansa, yuxuda Allah İbrahimə bəyan etdi ki, oğlunu qurban kəs. İbrahim Peyğəmbər 3 dəfə bu yuxunu eynilə görür. O artıq anlayır ki, bu yuxu Allah tərəfindən əmr olunmuş müraciətdir. İbrahim Peyğəmbər öz oğlunu qurban verərkən Allah onu qoçla əvəz edir. Bu da insanlığa işarədir ki, o zamanlar müəyyən insanlar selə, daşqına, oda öz övladlarını qurban verirdilər".

Fuad Nurullayev həmçinin qeyd edib ki, Allah-Təala övladlarımızın qurbanlığını istəmir: "Allah-Təala onu qoçla əvəz etdi. Biz qəlbimizdə olan kin-küdurəti Allah yolunda qurban verib təmizləyirik. Qurban payı 3 hissəyə bölünür. Bir hissəsi ailə üzvünə sərf edilir. Qalan iki hissəsindən biri yaxın qohum-əqrabalara, o biri hissəsi isə uzaq ətrafda olanlara paylanmalıdır. Elə qurban kəsilməlidir ki, o qurban layiqli pay olsun. Qurbanlıq qoçdan, qoyundan 8 aylıqdan 1 illik böyük olmalıdır. İribuynuzlu heyvanlar və dəvədən kəsə bilər. Əlimizdə olan təqvimə əsasən iyulun ayının 20-si Qurban bayramına təsadüf etməlidir. Dövlət səviyyəsində Qurban bayramı 2 gün yəni iyul ayının 20-si və 21-i götürülür".

***Arzu Qurbanzadə***

# Təhlükəsizlik kəməri haqqında nə bilirik?

Tarixdə bilinən ilk təhlükəsizlik kəmərini 1885-ci ildə amerikalı Edward J.Claghorn tərəfindən icad edilib. O, açıq vaqonlarda səyahət edən turistlər üçün hazırladığı icadını təhlükəsizlik kəməri adlandıraraq elə həmin ildə potentləşdirmişdi. Təhlükəsizlik kəmərlərinin ilkin kütləvi tətbiqi isə ilk dəfə aviasiyada olmuşdur. Belə ki, fransız pilot Adolphe Pegoud 1913-cü ildə təhlükəsizlik kəmərini təyyarəsinə quraşdırmışdı.

Müasir təhlükəsizlik kəmərinin (remen) tətbiq edildiyi ilk avtomobil isə 1959-cu ildə buraxılan "Volvo PV 544" olub. Təhlükəsizlik kəmərini ixtira edən mühəndis Nils Bolin "Volvo" şirkətindən əvvəl aviasiya zavodunda çalışıb və katapult oluna bilən oturacaqların layihələndirilməsində iştirak etmişdir. Qəza zamanı oturacağın insanı hansı sürətlə kənara atması Bolinə məlum idi və o sürücüləri oturacaqdan ayrılmağa imkan verməyən sistem yaratmağı qarşıya məqsəd qoymuşdu. Nəhayət ilk dəfə "Volvo PV 544" və "Volvo Amazon" modellərində quraşdırıldı. Bütün avtomobil istehsalçılarının sərbəst istifadəsi üçün Bolinin yeni ixtirası açıq patent aldı. 1963-cü ildə "Volvo" ixrac etdiyi avtomobilləri təhlükəsizlik kəməri ilə komplektləşdirməyə başladı. "Volvo"nun mütəxəssisləri yeni məhsulun nə qədər səmərəli olduğunu öyrənmək üçün 30 min qəzanı araşdırdılar və məlum oldu ki, təhlükəsizlik kəməri travma riskini 50-60% azaldıb. 1967-ci ildən etibarən bütün avtomobillər təhlükəsizlik kəmərləri ilə təchiz edildi.



1957-ci ildə İsveç dünyada təhlükəsizlik kəmərlərindən istifadəni qanunləşdirən ilk ölkə oldu. SSSR-də isə 1970-ci ildən istehsal edilən avtomobillərə təhlükəsizlik kəmərləri quraşdırılmağa başlanıldı. 1984-cü ildə Almaniyada ilk dəfə sürücü və ön sərnişin təhlükəsizlik kəmərlərindən istifadə etmədiyinə görə cərimə tətbiqinə başlanılıdı.

# "Nar" abunəçiləri üçün "Vətəndaş" tipli "Asan İmza" xidmətinin aylıq abunə haqqı ləğv edilir

"Nar" abunəçiləri üçün 1 iyul 2021-ci ildən etibarən "Vətəndaş" tipli "Asan İmza" xidmətinin aylıq abunə haqqı ləğv edilir. Bu tarifdən 20 iyun 2020-ci ildən xidmətə qoşulan və 1 iyul 2021-ci ildən etibarən yeni qoşulan vətəndaşlar yararlana biləcəklər. Xatırladaq ki, bu xidmətin aylıq abunə haqqı 2.50 AZN təşkil edirdi. "Nar" abunəçiləri "Asan İmza" xidmətini mövcud olan mobil nömrələrində aktivləşdirə bilərlər və bu zaman yeni nömrə əldə etməyə ehtiyac yoxdur. Sadəcə "Nar" Xidmət mərkəzlərinə yaxınlaşaraq, "Asan İmza" xidmətini dəstəkləyən "SIM" kart almaq üçün mövcud nömrənin dublikatını əldə etməlidirlər. Qeyd edək ki, Azərbaycan vətəndaşları üçün elektron xidmətlərə geniş imkanının təmin edilməsi məqsədilə B.EST Solutions şirkəti bütün mobil operatorlar, eləcə də İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə birlikdə bu qərarı verib.

İstifadəçilər Azərbaycanda dövlət və özəl qurumlar tərəfindən təqdim olunan 1000-dən çox elektron xidmətdən yararlanacaq və fiziki olaraq, həmin qurumlara müraciət etməmək imkanına sahib olacaqlar.

Qeyd edək ki, sahibkarlar və dövlət qulluqçuları üçün nəzərdə tutulan "İş" və "Dövlət" tipli "Asan İmza" xidmətinin qiyməti və aylıq abunə haqqı dəyişilməz olaraq qalır.

Xatırladaq ki, 2020-ci ilin iyun ayında aylıq abunə haqqı saxlanılmaqla, 3 il müddətinə "Asan İmza" xidmətinin ("Vətəndaş" tipli "Asan İmza" xidmət növü) ödənişsiz təqdim edilməsi barədə də qərar qəbul edilib. Bu xidmətin aktivləşdirilməsi isə 18 AZN təşkil edirdi.

"Nar" abunəçiləri ətraflı məlumatı https://www.nar.az/asanimza/ internet səhifəsindən əldə edə və ya "1847" Asan İmza Çağrı Mərkəzinə zəng edərək, eləcə də info@asanimza.az elektron poçt ünvanına yazaraq suallarına cavab ala bilərlər.



İLHAM

# Bakı Nəqliyyat Agentliyi əhalidən küsüb

**Azərbaycanın görkəmli satirik şairi Mirzə Ələkbər Sabirin şeirlərinin birində belə bir beyt var, "Əcnəbi seyrə balonlarla çıxır, biz hələ avtomobilə minməyirik". Dövr və zaman öz oxu ətrafında cəmi 100 il fırlandı, nəhayət, bizim xarici görkəmimiz tamamilə dəyişdi. Bununla paralel yaşam tərzimiz də müasir dövrün tələblərinə uyğunlaşdı. Şəhərimizin küçə və meydanlarında elə növbənöv bahalı xarici avtomobillər peyda oldu ki, böyük şairimiz sağ olub, bunları görsə idi, çox ehtimalla 37-ci təxəllüsü ilə çox dəhşətli satirik şeir yazardı. Həm də, təsəlli tapardı ki, nəhayət, biz də müasir dünyanın yeni texnologiyalarından və idarəetməsindən bəhrələnirik, nəinki kişilər, imkanlı zümrədən olan qadınlar da dəyəri 250-300 min ABŞ dolları olan avtomobillərlə avtoşluq edirlər.**

Sözüm ondadır ki, artıq düzələ-düzələ irəliləyirik. Amma bir əmması var ki, əksər hallarda cəmiyyəti düşünmürük, ancaq qarnımızı və yeddi arxa dönənimizə maddi şəraitin yaradılmasına çalışırıq. Əsasən də, pullu-paralı sahədə görəv sahibi olduğumuz zaman dişlər ağarır, gözlər parıldayır. Dərhal müəssisənin bank hesabındakı pulları ələ keçirmək üçün layihələr hazırlanır, rüşvətin alınmasında çətinliklərə düçar olmamaq üçün proqram tərtib olunur. Aradabir zəhmli rəis olduğunu kollektivə nümayiş etdirmək üçün işçilərdən bir neçəsinin çörəyinə bais olub işdən çıxarır, üç-dörd nəfərinə də töhmət verməklə əlləm-qəlləm işlərini davam etdirir. Bu halda rəisə tapşırılan sahə arxa plana keçir, ona ünvanlanan şikayətlər, narazılıqlar qulaqardına vurulur.

Fikir verin, neçə vaxtdır Bakı Nəqliyyat Agentliyinin bərbad fəaliyyəti barədə paytaxt sakinləri həyacan təbili çalırlar, narazılıqlarını bidirirlər, ancaq rəhbərlik susur. 2015-ci ildə yaradılan bu qurum hər hansı müsbət yenilikləri ilə diqqəti özünə cəlb edə bilməyib. "Köhnə hamam, köhnə tas". Sanki ölkəmizdə gedən iri miqyaslı islahatlar, köklü dəyişikliklər BNA-ya aidiyyatı yoxdur. Yenə də avtobus çatışmazlığı, yenə də sərnişin sıxlığı. Bu belə azmış kimi BNA dayanma-durma qaydalarını pozmaq bəhanəsi ilə sürücüləri kütləvi şəkildə cərimələyirlər. Vay o məqama ki, küçədə, dayanacağa yaxın yerdə və ya yaşadığın binanın qarşısında avtomobilini saxlayıb, adam düşürəsən, dərhal BNA-nın obyekti hesab olunan radara tuş gələcəksən. Cərimədə 20-40 manat ola bilər. Bu cür cərimələmə kütləvi xarakter daşıdığından sürcülər arasında ciddi narazılıqlar yaranıb. Şikayətlər isə cavabsız qalır, bir növ tüklərdə tərpənmir. Yəni açıq şəkildə nümayiş etdirmək istəyirlər ki, meydan bizimdir və biz də əcəb edirik.

Bakı şəhərində avtobuslarda sərnişin sıxlığının üzücü bir probleme çevrilməsi onu deməyə əsas verir ki, hələ də köhnə infrastruktur qalmaqdadır. Onda sual yaranır, Bakı şəhərində nəqliyyatın intellektual idarə edilməsi məqsədilə Cənubi Koreya şirkəti ilə imzalanan 100 milyon manatlıq müqavilənin aqibəti necə oldu? Dövlət vəsaiti hesabına dəyəri on milyon manatlarla ölçülən yeni avtobuslar gətirilib və BNA yeni texnologiyalarla təchiz edilib, bəs nəticəsi? Deyilənlərə və yazılanlara görə, Bakı şəhərində nəqliyyatın intellektual idarəetmə sistemini təkmilləşdirmək üçün Bakı Nəqliyyat Agentliyi 2019-cu il də SİNAM şirkətinə 22 milyon manat vəsait köçürüb. Görünən isə ondan ibarətdir ki, BNA rəhbərliyi 22 milyon manatın faizini almaqla intellektsiz fəaliyyətini davam etdirir.

Araşdırmalarım nəticəsində bəlli oldu ki, BNA-nın vəzifəsi Bakı şəhərində nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətini təmin etməkdir. Qurumun avtobuslarının rahat və maneəsiz hərəkətləri üçün Bakı şəhərinin yollarında ayrıca zolaqlar yaradılsa da, yenə də gecikmələr baş verməkdədir. Diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, avtobuslarda soyuducular işləmir. Bu barədə sürücülərə irad bidirildikdə, "BNA rəhbərliyi soyuq havanın xəstəlik yarada biləcəyini söyləyib, bizlərə soyuduculardan istifadə etməməyi tapşırıblar" - deyə bildirirlər.

Əsasən, belə biabırçı hallar daha çox 21, 30, 32, 40, 44, 61, 81 sayli avtobuslarda müşahidə olunur. Sərnişinlər deyirlər ki, soyuducuların işləməməsi həmin avtobusların nağd ödənişdən kart sisteminə keçiddən sonra baş verib. Sərnişinlərdən Həsən Mirzəyev, Fatma Xəlilova, Gülyanə Kərimova, Qəmər Fətəliyeva, Mirzə Məmmədov bizimlə söhbətlərində bildirdilər ki, soyuducunun işləmədiyi avtobuslara minmək əzablı və əziyyətli gediş-gəliş deməkdir: "Təbii ki, avtobusa mindiyimiz halda maskadan istifadə etməliyik. Soyuducu işləmdəyi halda maskada nəfəs almaq çox çətindir. Maskanı çıxartsaq polis dayanacaqda yaxınlaşıb, xəbərdarlıq edir".

"Soyuducunun işləmədiyi avtobuslarda istidən ürəyi gedən sərnişinlər olur. Bu kimi biabırçılıqlar nə zamana qədər davam edəcək" deyə sərnişinlər haqlı sual edirlər. Haqlı suallara cavab tapmaq üçün BNA -nın rəsmi şəxsləri ilə əlaqə saxlamağa çalışdıq. Təəssüf ki, əhalidən küsgün olan BNA-nın söz sahibləri telefon zəngimizə cavab vermədilər. Ruhdan düşmürük. Başa düşürük ki, isti yay günlərində yeni layihələr üzərində xəyallar qurduqları bərli-bəzəkli kabinetlərində və ya gözəl mənzərəli istirahət mərkəzlərində telefon zənglərinə cavab verməyə nə hacət, olsun. Amma çox keçməz cavab verərlər. Çünki əhali BNA-nın fəaliyyətində hökm sürən özbaşınalığın aradan qaldırılmasında israrlıdır.

# Azərbaycan-Ermənistan: sülh prosesi necə gedir?

*Putin: "Nə Azərbaycan, nə Rusiya, nə də Ermənistan münaqişənin davam etməsində maraqlı deyil"*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Son günlərdə Azərbaycan-Ermənistan arasındakı məsələlərlə bağlı vəziyyət dünya mediasının diqqət mərkəzindədir. "Moskva-Baku" portalında yayımlanan verilişdə qeyd olunan məqamları oxucularımızın diqqətinə çatdırırıq.***

## Qarabağdakı vəziyyət

Dünən rusiyalılarla birbaşa xəttdə Prezident Vladimir Putin Dağlıq Qarabağdakı münaqişənin həlli ilə bağlı bir sualı cavablandırdı. Putin Rusiyanın bu ciddi münaqişənin həllində mühüm bir rol oynadığını qeyd etdi. "Bu gün heç kim- nə Azərbaycan, nə Rusiya, nə də Ermənistan münaqişənin davam etməsində maraqlı deyil"- deyən Putin Dağlıq Qarabağ münaqişəsinin həlli zamanı həllini tələb edən çox sayda problemin toplandığını da əlavə etdi.

"Bəli, bir çox problem var. Bölgənin iqtisadi və sosial inkişafını əks etdirən məsələlər var. Əlbəttə, Qarabağda yaşayan insanların buna ehtiyacı var. Çünki silahlı qarşıdurmanın yenidən başlayacağı halda orada yaşamaq mümkün deyil. Bunu çox yaxşı başa düşürük. Bunu həm Ermənistanın, həm də Azərbaycanın liderləri başa düşürlər. Bəli, həqiqətən çox problem var. Normal infrastrukturun bərpası ilə bağlı məsələlər var, Ermənistanla Azərbaycan arasındakı dövlət sərhədində müvafiq iş aparmaq üçün sərhədin demarkasiyası ilə bağlı məsələlər var. Xüsusilə heç vaxt əsil dövlət sərhədi olmadığı, yalnız ittifaq respublikaları arasındakı şərti inzibati sərhəddin olduğu yerlərdə. İndi işləyirik. Xüsusi üçtərəfli bir qrup yaratdıq - Rusiya, Azərbaycan, Ermənistan və bölgədə normal münasibətləri bərpa etmək üçün hər şeyi edəcəyik. Bu işdə əsas faydalananlar təbii ki, Qarabağ sakinləri olmalıdır. Düşünmək istərdim ki, on illər boyu yığılan bütün çətinliklərə baxmayaraq, belə olacaq"- Rusiya Prezidenti deyib.

## Revanşist ritorikası yoxdur

Ermənistandakı anti-Azərbaycan və revanşist ritorika Bakı ilə İrəvan arasındakı münasibətlərin normallaşdırılması məsələsini təhlükə altına qoyur. Bunu dünən Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri Ceyhun Bayramov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının 43-cü iclasında çıxış edərkən deyib.

"Ermənistanda revanşist ritorika ilə müşayiət olunan Azərbaycana nifrət ciddi narahatlığa səbəb olur. Ermənistandakı hakim və müxalif siyasətçiləri birləşdirən anti-Azərbaycan bəyanatları münasibətlərin normallaşması prosesini təhdid edir"- nazir vurğulayıb.

Azərbaycan Xarici İşlər Nazirliyinin başçısı rəsmi Bakının İrəvana dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası ilə bağlı danışıqlara başlamaq üçün təklif verdiyini də qeyd etdi. Və yaxın gələcəkdə Azərbaycan Ermənistandan müsbət reaksiya gözləyir.

"Ermənistanla dövlət sərhədinə nəzarəti bərpa etdikdən sonra Azərbaycan hazırda sərhəd boyunca sərhəd nəzarəti infrastrukturu qurur. Ermənistana sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı ikitərəfli danışıqlara başlamağı təklif edirik. Azərbaycan bu təklifə Ermənistandan müsbət reaksiya gözləyir"- Ceyhun Bayramov bildirib.

Nazir əlavə edib ki, Cənubi Qafqazda sülhü bərpa etmək lazımdır, bunun həm Azərbaycan, həm Ermənistan, həm də qonşuları üçün faydası olacaq. Xarici işlər naziri münaqişənin həllinin regional əməkdaşlıq, inkişaf və tərəqqi üçün yeni perspektivlər açdığını xatırladıb:

"10 Noyabr 2020-ci il tarixli ortaq bəyanat, bölgədə kommunikasiyaların açılmasını təmin edən 11 yanvar 2021-ci il tarixli Azərbaycan-Rusiya-Ermənistan üçtərəfli bəyanatı ilə tamamlandı. Bu tədbirlərin həyata keçirilməsi QDİƏT regionunun mühüm bir hissəsinin - Cənubi Qafqazın mənzərəsini əhəmiyyətli dərəcədə dəyişdirəcəkdir. Azərbaycanla Türkiyə arasında yeni bir əlaqə olan Zəngəzur dəhlizi mövcud ticarət və nəqliyyat əlaqələrinə xidmət edəcək və təxminən 30 ildən sonra Naxçıvanın təcrid olunmuş eksklavını Azərbaycanla birləşdirəcəkdir".

Nazirin sözlərinə görə, kommunikasiyaların bərpası bütün bölgə üçün qazanclı vəziyyətdir və Qara dənizin daha geniş coğrafiyasının əhəmiyyətini artırır.

"Nəqliyyat, rabitə və ticarət təşəbbüsləri yeni tərəfdaşlıq imkanlarından faydalanmaq üçün bir fürsət verəcəkdir. İnkişafı artırmaqla yanaşı, genişləndirilmiş regional əməkdaşlıq bölgədə hərbi hücum riskini azaldan, sülhü və sabitliyi artıran iqtisadi imkanlar yaratmağa kömək edə bilər".

## Danışıqlar zarafatla başladı

Rusiya xarici işlər naziri Sergey Lavrov ilə türkiyəli həmkarı Mevlut Çavuşoğlu arasında danışıqlar dünən Türkiyənin Antalya şəhərində başladı. İki ölkənin xarici işlər nazirlərinin görüşü bağlı qapılar arxasında təkbətək formatda keçirildi. Müzakirə başlamazdan əvvəl Lavrov və Çavuşoğlu bayraqların fonunda birlikdə şəkil çəkdirdilər. Fotoçəkiliş zamanı Sergey Lavrovun türkiyəli xarici işlər naziri Mevlut Çavuşoğlu ilə ortaq şəkil çəkdirmə mərasimi zamanı türk jurnalistin fərqli bir yer tutması tələbinə zarafatla cavab verdiyi qeyd edildi.



Nazirlər ölkələrinin bayraqları qarşısında dayandılar və Türkiyə jurnalistlərindən biri Lavrovdan Rusiya bayrağına mane olmaması üçün yerdəki qırmızı işarədə dayanmasını istədi. Buna Lavrov zarafatla cavab verdi: "Gördüyünüz şeyi görürsünüz. Bizə nə edəcəyimizi söyləməyin".

Heyət üzvləri və jurnalistlər güldü və Çavuşoğlu rus nazirin zarafatını bəyəndiyini bildirdi. Xüsusi görüşdən sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə danışıqlara başlandı. Məlumdur ki, danışıqlar zamanı Lavrov Rusiya ilə Türkiyənin Azərbaycan və Ermənistan arasındakı dialoqu normallaşdırmaq üçün səyləri əlaqələndirəcəklərini söylədi. Nazirlərin Ukrayna və Əfqanıstandakı vəziyyəti müzakirə etdikləri də bildirilir.

## Həbs olunanların vəziyyətini müəyyənləşdirin

Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer dünən bir Rusiya qəzetinə verdiyi müsahibəsində Bakı ilə İrəvanın müharibə zamanı və döyüş əməliyyatları bitdikdən sonra Qarabağda saxlanılan şəxslərin statusu məsələsini öz aralarında həll etməli olduqlarını söylədi.

"Həbs olunanların bəzilərinin hərbi əsir kimi qəbul edilib-edilmədikləri, statuslarının nə olduğu və geri qayıda biləcəkləri barədə mübahisələr davam edir. Bu məsələlərlə məşğul olmağa davam edirik".

O, həmçinin qeyd edib ki, "Qırmızı Xaç"ın məhbuslarla birbaşa əlaqəsi var, bu, problem deyil, lakin Bakı və İrəvan məhbusların statusu məsələsini həll etməlidirlər. Onun sözlərinə görə, BQXK hər iki tərəflə təmasdadır.

"Azərbaycan hökuməti, Ermənistan tərəfi ilə tutulanların statusu ilə bağlı fikir ayrılıqlarının olduğunu bildirdi. Bakı və İrəvan bu problemi öz aralarında həll etməlidirlər. Təcrübəmizi paylaşa bilərik, hansısa məsləhət verə bilərik, ancaq müvafiq hökumətlər statusları özləri təyin etməli və yekun qiymətləndirməlidirlər".

Xatırladaq ki, rəsmi Bakı bütün hərbi əsirləri və nəzarətə alınan şəxsləri İrəvana qaytardığını dəfələrlə bəyan etmişdi. Bu cür şəxslərin ümumi sayı təxminən 90 nəfərdir. Eyni zamanda, Bakı 2020-ci ilin noyabrında döyüş əməliyyatları başa çatdıqdan sonra Qarabağda tutulan silahlıları hərbi əsirləri hesab etmir. Azərbaycan səlahiyyətlilərinin bildirdiyinə görə, bu şəxslər ölkə qanunvericiliyini pozmuş, Azərbaycan ərazisinə qanunsuz olaraq daxil olmuş və terror aktlarının törədilməsində və hərbi və mülki şəxslərə qarşı hücumlarda iştirak etmişlər. Hazırda Bakıda bu məhbusların məhkəməsi davam edir.

Beləliklə, bir gün əvvəl Bakı Apellyasiya Məhkəməsində 13 erməni diversanta qarşı açılan cinayət işi üzrə məhkəmə iclası keçirildi. İclas zamanı prokuror ittiham aktını oxudu. Erməni təxribatçılar "terror törətmək məqsədi ilə Azərbaycan ərazisinə keçməkdə" günahlandırılır. Və bu gün Ermənistan tərəfdən Qarabağdakı döyüşlərdə iştirak edən Rusiya vətəndaşı Eduard Dubakov barəsində başqa bir məhkəmə prosesi başladı. O, terrorizm, cinayətkar qrupda iştirak və Azərbaycanın dövlət sərhədini qanunsuz keçmə maddələri ilə ittiham olundu.

Hakim məhkəmə zamanı ittihamların sübuta yetiriləcəyi təqdirdə 8 ildən 15 ilə qədər həbs cəzası ala biləcəyinə qərar verdi. Təqsirləndirilən şəxs ittiham üzrə özünün qismən günahkar olduğunu etiraf etdi.

Əlavə edək ki, Bakıda ilk Qarabağ müharibəsi zamanı azərbaycanlı məhbuslara vəhşicəsinə işgəncə verən iki erməni silahlısına qarşı növbəti məhkəmə prosesi keçirilir. Bütün məhbuslara qarşı məhkəmə işləri davam edir.

## Zərərçəkənlər üçün yeni mənzil

Bu gün məlum oldu ki, 2-ci Qarabağ müharibəsi zamanı 2020-ci ilin oktyabrında Azərbaycanın Gəncə şəhərinə raket hücumlarından əziyyət çəkən ailələr Dövlət Mənzil İnşaat Agentliyi tərəfindən inşa edilən yeni yaşayış kompleksində tam təmirli mənzillər aldılar. Qalan 12 ailə, istəklərinə görə mənzillərin dəyərinə bərabər vəsait aldı.

Xatırladaq ki, 2020-ci ilin oktyabrında Azərbaycan və Ermənistan arasındakı qarşıdurmanın kəskinləşməsi zamanı Ermənistan silahlı qüvvələri döyüş bölgəsindən çox uzaqda yerləşən Gəncə şəhərini raket hücumlarına məruz qoymuşdu. 11 oktyabrda şəhərə raket zərbəsi nəticəsində 10 nəfər ölüb, 30-dan çox insan yaralanıb. Oktyabrın 17-nə keçən gecə Ermənistan Silahlı Qüvvələri Gəncə və Mingəçevirə növbəti raket zərbəsi endirib. Gəncə iki raketlə vurulub. Cəmi 20 evə ziyan dəyib, daha 4-5 ev tamamilə dağılıb.

*Müəllif- Anna Nemolyakina*
*Tərcümə - Elçin Bayramlı*

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

2 iyul

Son səhifə


## Messi artıq "Barselona"nın futbolçusu deyil!




**Lionel Messinin "Barselona" ilə müqaviləsi başa çatıb. Qol.az xəbər verir ki, argentinalı hücumçu iyunun 30-u başa çatan müqaviləsinin müddətini indiyə kimi yeniləməyib. O, artıq azad agent olub.**

Kataloniya klubunun prezidenti Joan Laporta 34 yaşlı oyunçu ilə bağlı sport.es-ə danışıb. O, Messinin klubda qalmasını istədiklərini söyləyib: "O da burada qalmaq istəyir. Hər şey qaydasındadır. Maliyyə feyr-pleyi ilə bağlı problemimiz var. Hər iki tərəf üçün ən yaxşı həll yolu axtarırıq".

Qeyd edək ki, Messi 2003-cü ildən "Barselona"da oynayır. O, ötən mövsüm La Liqada meydana çıxdığı 35 matçda 30 qol vurub, 11 qolun ötürməsini verib.

## Tanınmış model: Sinəmin ölçüsü böyüdüyünə görə...



*Avstraliyalı model Bridget Malkolm, 2016-cı ildə "Victorias Sekret"in dəfiləsindəki modellik təcrübələrindən və 2017-ci ildə şou üçün nə üçün istənmədiyini danışıb. SIA xarici mətbuata istinadən xəbər verir ki, keçmiş "Victorias Sekret" modeli Bridget Malkolm bir zamanlar tanıtımda çıxdığı marka ilə bağlı təəccüblü açıqlamalar verib.*

### "Bədənimin yaxşı görünmədiyini dedilər"

29 yaşlı avstraliyalı model, yayımladığı "TikTok" videosunda 2016-cı ildə təşkil olunan moda nümayişi üçün 30 A ölçülü büstqalter taxdığını, "Əslində mənim ölçüm 34 B idi və bu mənim üçün yaxşı ölçü idi" dedi. Markanın keçmiş baş direktoru Ed Razek tərəfindən daha sonra 30 B bütqalter ölçüsünə keçdiyinə görə 2017 moda nümayişindən kənarlaşdırıldığını izah edən Malkolm, "Ed Razek bədənimin kifayət qədər yaxşı görünmədiyini söylədi" - dedi.

*Ayşən Vəli*

# Eyni cinsdən olan nigahlar - şok səbəblər!

***"İstanbulda son mitinq zamanı indiyə qədər cinsi azlıqlar adlandırdığımız şəxslərin polis tərəfindən dəyənəklə dağıdılması bir daha Şərqdə və Qərbdə insan haqlarına, insanın təməl hüquqlarına, eyni zamanda əvvəl və sonralar qazanılan müxtəlif qurumlar tərəfindən müsbət və mənfi qarşılanan haqlarına hörmət baxımından maraqlı bir hadisə idi. Ola bilər ki, qardaş Türkiyədə cinsi azlıqların mitinq və yürüşü zamanı siyasiləşdirmə və kürd məsələsi qaldırılmasaydı İzmir və başqa şəhərlərdə olduğu kimi onlar da polis tərəfindən dağıdılmazdı". Bu sözləri SIA-ya açıqlamasında yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.***



Onun sözlərinə görə, son 50 il bütün dünyada olduğu kimi, Azərbaycanda da ekoloji, sosial, ictimai, siyasi, demoqrafik problemlər və mənəvi dəyərlərin dəyişdirilməsi nəticəsində əvvəllər cinsi azlıq adlandırılan indi isə sosial fərqli qruplar kimi xarakterizə edilən bir qrup insanların meydana çıxmasına səbəb oldu: "Onlar üçün ənənəvi dəyərlər arxada qalır və onlar daha yeni dəyərlər, yeniliklər axtarırlar. Ona görə də onlar üçün ailə və sosial münasibətlərin fərqli forması daha maraqlı görünür. Bu formalar, fərqliliklər uğrunda onlar yeni qruplarını, yeni imiclərini, yeni davranış və yaşam tərzlərini yaradırlar və cəmiyyətə təqdim edirlər. Həm kişi, həm qadın cinsindən olub, amma özünü əks cinsə qarşı heç nə hiss etməyən şəxs kimi tanıdan, bir çoxlarımızın mavi, gey, lezbiyan, trans kimi adlandırdığımız şəxslərin hüquqları əlbəttə digər insanların hüquqları kimi konstitusiyamızda qurulub.

Azərbaycan qanunvericiliyində eyni cinsdən olan nigahlar heç vaxt qadağan edilməyib. Eyni zamanda həm mentalitetimizdə, həm insanlarımız arasında, həm də qanunvericilikdə bu qəbul edilməyən formatdır. Amma dünyada gedən dəyişikliklər əvvəl-axır Azərbaycana da təsir etməliydi. Biz küçədə hər hansı bir iti maşın vuran zaman və ya insanlar iti daş-qalaq edən zaman dərhal onun hüquqlarını qorunmaq üçün mübarizəyə qalxırıq. Ağaclar kəsilən zaman dərhal aidiyyatı qurumlara şikayət edirik. Həmin bu heyvanlara qarşı, canlılara qarşı radikal addım atan insanların cəzalandırılmasını tələb edirik. Amma ətrafımızda olan qohum əqrəbalarımızda öz millətimizdən olan amma özünü cinsi azlıqdan sayan insanlara qarşı bu qədər həqarət, nifrət bu qədər homofobiya haradandır anlaya bilmirəm. Halbuki tarixə baxsaq, şərq tarixində saraylarda, xan saraylarında, karvansaraylarda, hamamlarda eyni cinsdən olan sevgilər, mavilik, oğlanbazlıq kimi birləşmiş bir çox yaşam tərzi normal qəbul edilir".

Aydın Xan Əbilov həmçinin qeyd edib ki, biz Avropanın dünyanın qəbul etdiyi sivil münasibətləri qəbul etmək istəmirik: "Yəni kimsə deyirsə ki, eyni cinsdən olan nigaha qarşıyam onda zəhmət çəksin öz qızını mavi oğlana versin. Və yaxud öz ləzbiyan qızı üçün normal başqa bir tərəfdaş tapsın. Bu da mümkün deyil. Artıq Ərəb ölkələrində, İslam ölkərində, İranda, Türkiyədə və Azərbaycanda da bu qadağalar, cinsi azlıq nümayəndələrinə qarşı haqsızlıq ona gətirib çıxartdı ki, bu digər insanlar bu tipli subkultural sosial qruplara maraq göstərməyə başladı. Xoşumuz gələ bilər, gəlməyə də bilər. Normal qəbul edə bilərik, həmçinin etməyə də bilərik. Fakt odur ki, bu artıq sosial statistik faktlardır və biz bu faktlardan qaça bilmərik. Azərbaycanda sıxışdırılan geylər, lezbiyanlar, translar Türkiyədə doluşublar, Rusiyada yaşayırlar, Avropaya, ABŞ-a gedirlər. Onlar orada çox keçmədən özlərinə prestij, karyera qazanırlar, orada ailə qururlar.

Təəssüflər olsun ki, biz azərbaycanlılar geylərin, lezbiyanların azərbaycanlı həmcinsləri ilə evlənməsinə pis baxırıq. Halbuki, ABŞ-da hansısa senatın, varlının qızı ilə evlənən azərbaycanlı qıza normal baxırıq və hiddətlə qarşılamırıq. Ona görə də biz bir qədər fərqli düşünməliyik. Azərbaycan cəmiyyətinin qarşısında çox böyük təlatümlü məsələ qalır. Ya bu insanları sıxışdırırıq və bütün dünyanın bizə qapıları bağlanır, bizim tanınmış dövlət adamlarımıza, homofob görünən insandan tutmuş adi bir insana qədər hər birinə Avropa Birliyinə daxil olmaq qadağan olunur, ya da biz bu insanların yaşam tərzinə hörmətlə yanaşırıq və tolerant olaraq bunların eynicinsli nümayəndələri ilə evlilik etməsi yox, fitri istedada malik bu insanların gördüyü digər faydalı işlər maraqlandırır bizi. Azərbaycanda mavilərin, geylərin, lezbiyanların öz klubları, restoranları, əyləncə mərkəzləri yaradılmalıdır. Nəzərə alaq ki, sosial fərqli qrupların onsuz da sosial şəbəkələrdə çox geniş auditoriyası var. Bu qədər maraq olan sosial fərqli qrupları sıxışdırmaq onların nigahın qarşısını almaq, onların birgə yaşayışını mane olmaq əslində gülüncdür və 21-ci əsrin cəmiyyətlərinə yaraşmayan hərəkətdir. Mən onların təbliğini etmirəm. Amma biz onları sıxışdırmaqla, lağ etməklə əslində onları qəbul da edirik, tanıdırıq".

*Arzu Qurbanzadə*


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600